

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 42 (24.528)

31 oktyabr 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi



Mədəniyyətlərarası dialoqdan beynəlxalq ədalətə:

Azərbaycanın qlobal proseslərdə prinsipial mövqeyi

Müasir dünyada münaqişələrin dərinləşməsi, beynəlxalq hüququn tətbiqində ikili standartların müşahidə olunması və dövlətlər arasında etimadın zəifləməsi sülh və dialoq məsələlərini qlobal gündəliyin əsas mövzularına çevirib. Belə bir şəraitdə Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə yönəlmiş təşəbbüsləri yalnız humanitar əməkdaşlıq baxımından deyil, həm də beynəlxalq münasibətlər sistemində qarşılıqlı hörmətin və bərabərhüquqlu tərəfdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyət daşıyır. Bakıda keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bu baxımdan fərqli sivilizasiyaları bir araya gətirən platforma olmaqla yanaşı, qlobal problemlərin həlli yollarının müzakirəsi üçün də mühüm imkan yaradır.

Oktyabrın 27-də "Ortaq gələcək naminə dialoq" mövzusunda işə başlayan forum 100-dən artıq ölkədən iştirakçıları bir araya gətirib. Tədbirin gündəliyində mədəniyyətlərarası və dinlərarası münasibətlərlə yanaşı, sülh, təhlükəsizlik, beynəlxalq əməkdaşlıq və qarşılıqlı anlaşma kimi məsələlərin dayanması təsadüfi deyil. Çünki müasir dünyada mədəniyyətlər arasında anlaşma siyasi ziddiyyətlərdən, münaqişələrdən və beynəlxalq münasibətlərdəki problemlərdən ayrı mövcud ola bilməz.

Multikulturalizm və milli həmrəylik modeli

Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsindəki mövqeyi, ilk növbədə, tarixi ənənələrə və müxtəlif etnik-dini qrupların birgəyaşayış təcrübəsinə əsaslanır. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən ölkə əsrlərboyu müxtəlif mədəniyyətlərin qarşılaşdığı, qarşılıqlı təsir göstərdiyi və zənginləşdiyi məkan olub. Bu tarixi təcrübə müasir dövrdə multikulturalizm siyasətinin formalaşması üçün mühüm zəmin yaradıb.

Azərbaycan modelinin əsas xüsusiyyətlərindən biri milli kimliyin qorunması ilə fərqli etnik və dini mənsubiyyətlərə hörmətin uzlaşdırılmasıdır. Cəmiyyətdəki həmrəylik, qarşılıqlı hörmət və Azərbaycançılıq ideyası ölkənin ictimai-siyasi həyatında birləşdirici amillər kimi çıxış edir. Bu yanaşma multikulturalizmin yalnız mədəni müxtəlifliyin tanınması ilə məhdudlaşmadığını, eyni zamanda ictimai sabitlik və milli birliyin qorunması ilə əlaqəli olduğunu göstərir. Prezident İlham Əliyev forumun açılış mərasimində çıxışı zamanı Azərbaycanın bu sahədəki təcrübəsini belə ifadə edib: ***"Azərbaycan tarixən hər zaman mədəniyyətlərin çox olduğu ölkə olub. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əsrlərboyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub. Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlərboyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk. Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri isə cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq nəinki bərabər hüquqları var, onlar, həmçinin bir ailə kimi yaşayırlar. Biz həmrəylik, qarşılıqlı hörmət və anlaşmanın ən yüksək səviyyəsini həqiqətən hiss edirik. Hamımız milli ideyalar ətrafında birləşirik. Onlardan biri Azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir".***

Dövlət başçısının bu fikirləri Azərbaycanın mədəniyyətlərarası dialoq təşəbbüslərinin tarixi və ictimai əsaslarını ifadə edir. Müxtəlif mədəniyyətlərin yanaşı yaşaması yalnız tarixi irsin qorunması deyil, həm də müasir cəmiyyətin sabitliyinə və inkişafına təsir göstərən amildir. Etnik və dini müxtəlifliyin qarşıdurma mənbəyinə deyil, ümumi cəmiyyətin zənginliyinə çevrilməsi dövlət siyasəti ilə yanaşı, ictimai münasibətlərdə qarşılıqlı hörmətin mövcudluğunu da tələb edir.

Azərbaycanın müstəqillik dövründə üzləşdiyi çətinliklər fonunda milli həmrəyliyin əhəmiyyəti daha aydın görünür. Ermənistanın 30 illik hərbi təcavüzü və işğalı dövründə ölkənin müxtəlif etnik və dini qruplarının nümayəndələrinin ərazi bütövlüyünün bərpası uğrunda birgə mübarizəsi ümummilli maraqlar ətrafında birliyin təzahürü olub. Bu təcrübə göstərir ki, cəmiyyətdə qarşılıqlı etimadın və ortaq dəyərlərin mövcudluğu dövlətin çətin sınaqlar qarşısında dayanıqlılığını gücləndirən amillərdəndir.

Beynəlxalq hüquq və ikili standartlar problemi

Müasir beynəlxalq münasibətlərin ən ciddi problemlərindən biri beynəlxalq hüquq prinsiplərinin tətbiqində vahid yanaşmanın qorunmamasıdır. Dövlətlərin suverenliyi və ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipləri olsa da, onların müdafiəsi və beynəlxalq qərarların icrası məsələsində fərqli münasibətlərin ortaya çıxması beynəlxalq sistemə olan etimada mənfi təsir göstərir. Azərbaycanın uzun illər Ermənistanın işğalı ilə üzləşməsi bu problemin ölkənin tarixindəki konkret təzahürüdür. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının ərazilərimizdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən dörd qətnamənin icra olunmaması beynəlxalq qərarların həyata keçirilməsinin nə qədər vacib olduğunu göstərirdi. Həmin sənədlərin icrasını təmin edəcək təsirli mexanizmlərin olmaması beynəlxalq hüququn nüfuzu və beynəlxalq təşkilatların effektivliyi ilə bağlı ciddi suallar yaradırdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 30 il kağız üzərində qalan qətnamələri öz gücü hesabına icra edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu tarixi təcrübə bir daha göstərdi ki, beynəlxalq hüququn nüfuzu yalnız qəbul edilən qərarlarla deyil, onların icrasını təmin edən real mexanizmlərlə ölçülür. Prezident İlham Əliyev forumda bu məsələyə toxunarkən

Səhifə ⇨ 2

Mədəniyyətlərarası dialoqdan beynəlxalq ədalətə:



Azərbaycanın qlobal proseslərdə prinsipial mövqeyi

(əvvəli 1-ci səhifədə)

beynəlxalq təşkilatların qərarlarının icrası problemini xüsusi vurğulayıb: ***"Nəzərə alınmalı olan digər bir məsələ beynəlxalq təşkilatların qərarlarının icra mexanizmidir. Hazırda bir çoxları Birləşmiş Millətlər Təşkilatında islahatlardan danışır. Təfərrüatlara çox varmaq istəmirəm, lakin hesab edirəm ki, mühüm məsələlərdən biri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi olmalıdır. Qeyd etdiyim kimi, biz 30 il bu vəziyyətlə üzləşmişik. BMT Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının azad olunmasını tələb edən dörd qətnamə qəbul etmişdi. Onlar icra olunmadı. Onların icrasını təmin edən mexanizm yox idi. Ermənistana qarşı heç bir sanksiya tətbiq edilmədi".***

2020-ci ildə İkinci Qarabağ müharibəsi və 2023-cü ildə keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması regionda yeni reallıq formalaşdırdı. Bu fakt beynəlxalq münasibətlərdə qərarların qəbul edilməsindən daha çox onların icrasının əhəmiyyətini bir daha gündəmə gətirdi.

Müharibədən davamlı sülhə doğru

Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra Ermənistanla sülh münasibətlərinin qurulmasına yönəlmiş proses Cənubi Qafqazın gələcəyi baxımından xüsusi əhəmiyyət daşıyır. Respublikamızın sülh təşəbbüsləri ilə çıxış etməsi müharibədən sonrakı mərhələdə regional münasibətlərin yeni əsaslar üzərində qurulmasına yönəlib. 2025-ci il avqustun 8-də Vaşinqtonda sülh sazişi layihəsinin paraflanması və üçtərəfli Bəyannamənin imzalanması bu prosesin mühüm mərhələsi olub. Sənədlərin paraflanması və imzalanması siyasi dialoqun davam etdirilməsi və normallaşma istiqamətində irəliləyiş baxımından əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin forumdakı çıxışında diqqətçəkən məqamlardan biri müharibədən sonra qisasçılıq siyasətinin davam etdirilməməsi və sülhə üstünlük verilməsi ilə bağlı yanaşmadır: ***"Ötən ilin yayında paraflanmış sülh sazişinin layihəsini də biz hazırlamışdıq. Ermənistanla sülh sazişinin təşəbbüskarı biz olmuşuq. Çünki biz sonsuz müharibələr istəmirdik və qisas almaq niyyətində deyildik. Hərçənd hesab edirəm ki, emosiyalar da nəzərə alınmalıdır. Mən həmişə deyirəm ki, biz qisasımızı döyüş meydanında aldıq və bundan irəli getməməliyik. Əks təqdirdə, bu, sonsuz müharibəyə çevrilər".***

Bu yanaşma münaqişədən sonrakı mərhələnin əsas dilemmasını – hərbi qələbəni davamlı siyasi nəticəyə çevirmək məsələsini önə çıxarır. Müharibənin başa çatması ilə yanaşı, yeni qarşıdurmaların qarşısının alınması, regional əlaqələrin bərpası və sülh şəraitində əməkdaşlıq imkanlarının yaradılması da vacibdir. Bu xüsusda Cənubi Qafqazda münasibətlərin normallaşması yalnız Azərbaycan və Ermənistan üçün deyil, daha geniş region üçün də əhəmiyyətlidir. Sülhün möhkəmlənməsi nəqliyyat əlaqələrinin inkişafına, iqtisadi əməkdaşlığın genişlənməsinə və qarşılıqlı etimadın artmasına şərait yarada bilər.

Azərbaycanın beynəlxalq əməkdaşlıq imkanları

Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsində siyasi tərəfdaşlıqlar, enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları mühüm rol oynayır. Çinlə hərtərəfli strateji tərəfdaşlıq haqqında Bəyannamənin və ABŞ ilə Strateji Xartiyanın imzalanması, eləcə də Avropa İttifaqının bir sıra üzv dövlətləri ilə strateji tərəfdaşlıq münasibətlərinin qurulması ölkənin müxtəlif siyasi və iqtisadi mərkəzlərlə əlaqələrini genişləndirmək imkanlarını göstərir. Bu əlaqələrin əhəmiyyəti yalnız diplomatik münasibətlərlə məhdudlaşmır. Enerji resurslarının beynəlxalq bazarlara çatdırılması, nəqliyyat dəhlizlərinin inkişafı və regional iqtisadi əlaqələrin genişləndirilməsi Azərbaycanın beynəlxalq əməkdaşlıq sistemindəki rolunu artırır. Avropa ilə Asiya arasında yerləşən ölkənin coğrafi mövqeyi müvafiq infrastruktur və sabit regional münasibətlərlə birləşdikdə iqtisadi üstünlüyə çevrilə bilər.

Beynəlxalq nüfuzun davamlı olması üçün iqtisadi imkanlarla yanaşı, siyasi etimadın qorunması da vacibdir. Müxtəlif tərəfdaşlarla əlaqələrin inkişaf etdirilməsi, regional və qlobal təşkilatlarda iştirak, beynəlxalq təşəbbüslərə ev sahibliyi ölkənin xarici siyasət imkanlarını genişləndirir. Azərbaycanın 2027-ci ildə İslam Əməkdaşlıq Təşkilatının, 2028-ci ildə isə Avropa Siyasi Birliyinin Zirvə görüşlərinə ev sahibliyi statusu daşıması bu baxımdan diqqətəlayiqdir.

Ortaq gələcək üçün dialoqun real nəticələri

Prezident İlham Əliyevin forumdakı çıxışında vurğuladığı digər mühüm prinsip dövlətlərin müstəqilliyinə və seçimlərinə hörmətlə bağlıdır: ***"Amma ikili standartlar təkcə bununla məhdudlaşmır. İkili standart həm də kiminsə sənə necə yaşamağı öyrətmək istəməsidir. Halbuki bunu etməzdən əvvəl güzgüyə baxıb özündən soruşmalısan: sənin kiməsə ağıl öyrətməyə, müstəqil bir ölkəyə necə yaşamalı olduğunu, nə etməli və nə etməməli olduğunu diktə etməyə mənəvi haqqın varmı? Biz heç vaxt bunu etmirik. Biz diqqətimizi öz daxili işlərimizə yönəldirik. Başqa ölkələrdə baş verənlər isə həmin ölkələrin xalqlarının işidir. Bu bizim işimiz deyil. Biz də özümüzə qarşı eyni münasibəti gözləyirik və buna nail oluruq".*** Bu mövqe beynəlxalq münasibətlərdə qarşılıqlı hörmətin, suverenliyin və dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin əhəmiyyətini önə çıxarır.

Beləliklə, davamlı sülh ədalətin, qarşılıqlı hörmətin və bərabərhüquqlu münasibətlərin təmin olunması ilə mümkündür. Azərbaycanın mədəniyyətlərarası dialoq təşəbbüslərinin əhəmiyyəti də məhz bu prinsiplərin beynəlxalq gündəlikdə müzakirəsinə, fərqli mədəniyyətlər və dövlətlər arasında anlaşmanın möhkəmləndirilməsinə xidmət etməsindədir. Ortaq gələcəyə aparan yol beynəlxalq hüquqa əsaslanan əməkdaşlıq və məsuliyyətli dialoqdan keçir. Bütün bu amillərin timsalında Bakıda keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın beynəlxalq əməkdaşlıq, qarşılıqlı hörmət və sülh təşəbbüslərinin müzakirəsi üçün mühüm platformadır. Müasir dünyanın üzləşdiyi münaqişələr və etimad böhranı göstərir ki, dialoq yalnız fikir mübadiləsi ilə məhdudlaşmamalı, beynəlxalq hüququn prinsiplərinə əməl olunması və ədalətli münasibətlərin qurulması ilə tamamlanmalıdır. Azərbaycanın irəli sürdüyü yanaşmanın mahiyyəti də bundan ibarətdir: fərqlilikləri qarşıdurma səbəbinə deyil, əməkdaşlıq imkanına çevirmək, milli maraqlara hörmətlə yanaşı, xalqlar arasında anlaşmanı gücləndirmək. Çünki ortaq gələcəyin təminatı gücün deyil, hüququn, qarşıdurmanın deyil, dialoqun, ikili standartların deyil, ədalətin üstün tutulmasından keçir.

Nail ƏSGƏROV



Ulu Öndərin Naxçıvanda başlatdığı ordu quruculuğundan Qafqazın ən güclü ordusuna doğru



Bütün dövrlərdə inkişafın, yüksəlişin və uğurların başlıca şərtlərindən biri olan təhlükəsizlik həm də davamlı sabitliyin, əmin-amanlığın təminatıdır. Təhlükəsizliyin olmadığı yerdə dayanıqlı inkişafdan, əldə olunan nailiyyətlərin qorunmasından danışmaq mümkün deyil. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin üzləşdiyi çətinliklər də bunu bir daha təsdiqləyir.

Yetmiş illik sovet əsarətindən qurtularaq müstəqilliyini bərpa edən Azərbaycan həm Ermənistanın hərbi təcavüzü, həm də daxili siyasi çəkişmələr səbəbindən ağır sınaqlarla üz-üzə qaldı. Dövlət müstəqilliyinin və ölkənin gələcəyinin təhlükə altına düşdüyü həmin mürəkkəb dövrdə Azərbaycanın müxtəlif bölgələrində xaos və özbaşınalıq hökm sürürdü. Belə bir şəraitdə, 1991-ci il sentyabrın 7-də Naxçıvanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Ali Məclisin sessiyasında Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul edildi. Bununla Naxçıvanda müdafiə qüvvələrinin təşkili və ordu quruculuğu istiqamətində mühüm addım atıldı.

Dahi rəhbər xalqı Vətənin müdafiəsi naminə birliyə və ordu quruculuğuna dəstək verməyə çağırdı. Xalq bu çağırışa böyük həmrəyliklə cavab verdi, hər kəs əlindən gələni əsirgəmədi. Həmin illərdə neçə-neçə ananın, qız-gəlinin sandığı açıldı. Məğrur qadınlarımız ailə yadigarı kimi qoruyub saxladıqları zinət əşyalarını, toyduyün xatirələrini, ən əziz əmanətlərini silah alınması üçün Dövlət Müdafiə Komitəsinə bağışladılar. Bu, sadəcə, maddi yardım deyildi. Bu, xalqın öz rəhbərinə inamının, Vətən sevgisinin və müstəqilliyi qorumaq əzminin ifadəsi idi. Naxçıvanda yaranan milli birlik və həmrəylik ordu quruculuğunun möhkəm təməlinə çevrildi.

1993-cü ildə xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev dövlətçiliyin qorunması ilə yanaşı, ordu quruculuğunu da prioritet istiqamət kimi müəyyənləşdirdi. Naxçıvanda əsası qoyulan bu strateji xətt ölkə miqyasında davam etdirildi, nizami ordunun formalaşdırılması və möhkəmləndirilməsi istiqamətində mühüm işlər görüldü. Dahi rəhbərin müəyyənləşdirdiyi ordu quruculuğu siyasəti onun layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yeni mərhələyə yüksəldildi. Nəticədə, Azərbaycan Ordusunun dövlətimizin müstəqilliyinin, suverenliyinin və təhlükəsizliyinin etibarlı təminatçısına, xalqımızın güvənc yerinə çevrildi.

Ötən illər ərzində Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi müdafiə sahəsinə ayrılan vəsaitin artırılmasına, ordunun maddi-texniki bazasının gücləndirilməsinə və hərbi potensialın müasir tələblərə uyğun yenilənməsinə imkan yaratdı. Torpaqlarımızın bir hissəsinin işğal altında olduğu dövrdə güclü orduya sahib olmaq ölkəmiz üçün həyati əhəmiyyət daşıyırdı. Buna görə də hərbi potensialın artırılması ilə yanaşı, müdafiə sənayesinin yaradılması və inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirildi.

Bu gün Azərbaycanda müxtəlif növ silahların, döyüş sursatlarının, hərbi texnikanın və pilotsuz uçuş aparatlarının istehsalı müdafiə qabiliyyətimizin gücləndirilməsində mühüm rol oynayır. Milli müdafiə sənayesinin inkişafı ordunun təchizat imkanlarını genişləndirməklə yanaşı, ölkənin bu sahədə xarici mənbələrdən asılılığının azaldılmasına da xidmət edir. İstehsal potensialının genişləndirilməsi Azərbaycanın hərbi məhsullarının beynəlxalq bazarlara çıxarılması üçün də imkanlar yaradır.

Müasir silah və texnika, peşəkar hərbi kadrlar, döyüş hazırlığının yüksəldilməsi, qabaqcıl texnologiyaların tətbiqi və strateji tərəfdaşlıqlar Azərbaycan Ordusunun gücünü müəyyənləşdirən əsas amillərdəndir. Uzun illər ərzində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Silahlı Qüvvələrimiz müasir dövrün çağırışlarına cavab verən hərbi potensiala yiyələnib.

Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ölkəmizin ərazi bütövlüyünün və suverenliyiyin tam bərpasını təmin etdi. Bu tarixi hadisələr dövlətçilik salnaməmizdə yeni mərhələnin başlanğıcı oldu. Qazanılan uğurların arxasında yalnız hərbi güc deyil, həm də uzun illər ərzində həyata keçirilən məqsədyönlü dövlət siyasəti, iqtisadi inkişaf, fəal diplomatiya, ordunun müasirləşdirilməsi və milli həmrəyliyin möhkəmləndirilməsi dayanırdı. Otuz ilə yaxın müddətdə beynəlxalq ictimaiyyətin bir çox üzvü Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanısa da, münaqişənin həlli istiqamətində göstərilən səylər nəticə vermirdi. Beynəlxalq hüququn norma və prinsiplərinə münasibətdə nümayiş etdirilən ikili standartlar, qəbul olunan qərarlarla real addımlar arasındakı ziddiyyətlər ədalətin bərqərar olmasını ləngidirdi. Azərbaycan xalqı bu illər ərzində səbir və qətiyyətlə öz haqqını müdafiə etdi. Nəhayət, xalqımızın birliyi və ordumuzun gücü sayəsində tarixi ədalət bərpa olundu. "Dəmir yumruq" ətrafında birləşən xalqımız Vətən müharibəsində Zəfər qazanaraq ölkəmizin ərazi bütövlüyünün bərpasına nail oldu.

Qarabağ Zəfəri Azərbaycanın siyasi iradəsinin, milli birliyinin və dövlət gücünün vəhdətinin təntənəsi idi. Bununla belə ərazi bütövlüyünün və suverenliyin bərpası təhlükəsizlik məsələlərinin aktuallığını aradan qaldırmır. Əksinə, dəyişən beynəlxalq münasibətlər, dünyada və regionumuzda davam edən münaqişələr, yeni təhlükəsizlik çağırışları müdafiə qabiliyyətinin daim gücləndirilməsini zəruri edir.

Bu gün də Azərbaycanın təhlükəsizlik siyasətində güclü ordu quruculuğu prioritet istiqamətlərdən biri olaraq qalır. Dövlətimizin başçısı hərbi potensialın davamlı inkişafını, ordunun müasir silah və texnika ilə təchiz edilməsini, hərbi qulluqçuların peşəkarlığının artırılmasını ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinin mühüm şərtləri kimi müəyyənləşdirib.

Son illərdə müdafiə və milli təhlükəsizlik sahəsinə ayrılan vəsaitin artırılması da bu siyasətin ardıcıl xarakter daşıdığını göstərir. 2026-cı ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri üçün, təxminən, 8,7 milyard manat vəsait nəzərdə tutulub. Bu göstərici ölkəmizin təhlükəsizliyinin təmin edilməsinə, ordunun döyüş qabiliyyətinin yüksəldilməsinə və müdafiə sənayesinin inkişafına verilən əhəmiyyətin ifadəsidir.

Dövlətimizin başçısı ordu quruculuğunun və müdafiə qabiliyyətinin gücləndirilməsinin vacibliyini vurğulayaraq deyib: ***"Biz hər gün hazır olmalıyıq ki, istənilən hərbi təxribata cavab verək. Elə güc əldə etməliyik və bunu əldə edirik ki, heç kimin ağlına belə gəlməsin Azərbaycana qarşı hansısa təxribat törətmək. Ona görə bu, birinci vəzifədir və təsadüfi deyil ki, bizim bu gün müzakirə olunan dövlət büdcəmizdə, gələn ilin büdcəsində hərbi və təhlükəsizlik məsələləri yenə də ön plandadır və təqribən, 9 milyard manata yaxın vəsait bu məqsədlər üçün nəzərdə tutulur".***

Güclü ordu ölkəmizin müdafiə qabiliyyətini möhkəmləndirməklə yanaşı, regionda sülhün və sabitliyin qorunmasına da töhfə verir. Çünki dövlətin təhlükəsizliyinin etibarlı təminatı mümkün təhdidlərin qarşısını almaq, müharibə riskini azaltmaq və sülhün davamlılığı üçün əlverişli şərait yaratmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu dövlətimizin suverenliyini, ərazi bütövlüyünü və milli maraqlarını qorumağa qadirdir. Müzəffər Ordumuz xalqımızın güvənc yeri, müstəqilliyimizin və təhlükəsizliyimizin əsas təminatçılarından biridir. Güclü dövlət, qüdrətli ordu və milli birlik Azərbaycanın gələcək inkişafının, sabitliyinin və təhlükəsizliyinin başlıca dayaqlarıdır.

Ramiyə ƏKBƏROVA



Birinci vitse-prezident Mehriban Əliyeva Xalq rəssamı Fərhad Xəlilovu yubileyi münasibətilə təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Xalq rəssamı Fərhad Xəlilovu yubileyi münasibətilə təbrik edib.

"Şərq qapısı" xəbər verir ki, Birinci vitse-prezident sosial media hesabında bununla bağlı paylaşım edib. Paylaşımda deyilir:

"Bu gün Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilovun 80 yaşı tamam olur.

Hörmətli Fərhad müəllim!

Sizi 80 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram! Çoxillik əməyinizə, incəsənətə sədaqətlə xidmətinizə, ənənələrlə zəngin olan Azərbaycan təsviri sənətinin inkişafına verdiyiniz böyük töhfələrə görə çox sağ olun! Uca Allah Sizi və doğmalarınızı qorusun!

Dərin hörmət və sevgilərlə, MEHRİBAN".



Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyə xalqının Cümhuriyyət Bayramını təbrik edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesablarında Türkiyənin Cümhuriyyət Bayramı münasibətilə paylaşım edib.

Paylaşımda deyilir: "Türkiyə xalqını Cümhuriyyət Bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm!"



Birinci vitse-prezident Mehriban Əliyeva "Qağayı" tamaşasının təqdimatında iştirak edib

Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən Akademik "Malıy" Dram Teatrı – Avropa Teatrı oktyabrın 29-da Bakı Beynəlxalq İncəsənət Festivalı (BIAF-2026) çərçivəsində Anton Pavloviç Çexovun "Qağayı" pyesi əsasında hazırlanan eyniadlı tamaşasını Azərbaycan Dövlət Akademik Musiqili Teatrında təqdim edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızı Leyla Əliyeva və Alyona Əliyeva tamaşaya baxıblar.

"Qızıl maska" da daxil olmaqla Rusiyanın nüfuzlu teatr mükafatlarının laureatı olan Lev Dodinin quruluş verdiyi "Qağayı" klassik pyesin ən məşhur nümunələrindən biri hesab edilir.

Tamaşanın quruluşçu rəssamı və geyim üzrə rəssamı Aleksandr Borovskidir.

Səhnə əsərində Rusiyanın Xalq artisti Sergey Kurışev, Əməkdar artistlər Yelizaveta Boyarskaya, İqor Çerneviç və digərləri çıxış ediblər.

Qeyd edək ki, noyabrın 8-dək davam edəcək Bakı Beynəlxalq İncəsənət Festivalı ikinci dəfədir, keçirilir. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan BIAF-2026-nın proqramında konsertlər, balet və teatr tamaşaları, film nümayişləri, incəsənət xadimləri ilə görüşlər və ustad dərsləri də daxil olmaqla, 20-dən çox tədbir yer alıb.

Festivalda Azərbaycan, Böyük Britaniya, İsrail, Kanada, Rusiya, ABŞ, Fransa və digər ölkələrdən sənətçilər və yaradıcı kollektivlər iştirak edirlər.



Səlahiyyətli nümayəndə Ordubad rayonunda vətəndaşları qəbul edib



Oktyabrın 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Ordubad rayonunun Biləv kəndində vətəndaşları qəbul edib.

Qəbul zamanı vətəndaşların, o cümlədən müharibə iştirakçılarının müraciətləri dinlənilib. Müraciətlər, əsasən, yol infrastrukturu, sosial təminat, məşğulluq, əlilliyin təyinatı, eləcə də digər sosial məsələləri əhatə edib.

Ceyhun Cəlilov hər bir müraciətə həssaslıqla yanaşıldığını vurğulayaraq qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılacağını və onların həlli istiqamətində zəruri tədbirlərin görüləcəyini bildirib. Vətəndaşların bəzi müraciətləri üzrə bir sıra məsələlər yerindəcə həllini tapıb.

Qəbul zamanı qeyd olunub ki, vətəndaş müraciətlərinin dinlənilməsi, onların sosial problemlərinin operativ həlli, eləcə də şəhid ailələri və müharibə iştirakçılarına xüsusi diqqət göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Bu istiqamətdə vətəndaş qəbullarının mütəmadi olaraq davam etdirildiyi diqqətə çatdırılıb.





Səlahiyyətli nümayəndə Ordubad rayonunda ağsaqqallarla görüşüb

Oktyabrın 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Ordubad rayonunun bir qrup ağsaqqalı ilə görüş keçirib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Ordubad şəhərində ucaldılan abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri qoyulub.



Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilən görüşdə səlahiyyətli nümayəndə Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ordubad rayonuna daim xüsusi qayğı göstərdiyini diqqətə çatdırıb.

Ordubad rayonunun mədəni həyatımıza, milli-mənəvi dəyərlərimizin qorunmasına dəyərli töhfələr verdiyini, muxtar respublikanın sosial-iqtisadi inkişafında fəal iştirak etməsi üçün əlverişli imkanların yarandığını bildirib. Rayon sakinlərinin kənd təsərrüfatının müxtəlif sahələrində zəngin təcrübə qazandıqları, ictimai həyatda fəal yer aldıqları qeyd edilib. Bildirilib ki, ölkəmizin ərazi bütövlüyü tam təmin edilib və indi əsas vəzifə Prezident cənab İlham Əliyevin respublikamızın bundan sonrakı inkişafı və tərəqqisi istiqamətində qarşıya qoyduğu tapşırıq və vəzifələrin layiqincə yerinə yetirilməsidir.



Görüşdə rayon ictimaiyyətini maraqlandıran məsələlər, Ordubad rayonunun sosial-iqtisadi inkişaf perspektivləri və onların həlli istiqamətində bir sıra məsələlər müzakirə olunub. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş müvafiq Dövlət Proqramı çərçivəsində Ordubad rayonunda həyata keçirilən tədbirlər, eləcə də dövlət başçısının 2026-cı il 21 fevral tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"na əsasən Ordubad rayonunda icrası nəzərdə tutulan layihələr səlahiyyətli nümayəndə tərəfindən rayon ağsaqqallarının diqqətinə çatdırılıb.



Ceyhun Cəlilov, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2026-cı il avqustun 12-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncama əsasən Naxçıvanın inkişafı üçün ayrılan maliyyə vəsaitinin əsas istiqamətləri və bölgüsü haqqında bəhs edərək bu dövlət sənədinin də Ordubad rayonunun inkişafına mühüm töhfələr verəcəyinə inam ifadə edib.

Ali Məclisin nümayəndələri Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 51-ci sessiyasında iştirak ediblər

Oktyabrın 27-də Fransanın Strasburq şəhərində Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 51-ci sessiyası öz işinə başlayıb.

Oktyabrın 29-dək davam edən sessiyada Azərbaycan nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin nümayəndələri də iştirak ediblər.

İlk gün Konqresin Monitorinq, İdarəetmə, eləcə də Sosial İnklüzivlik komitələrinin iclasları keçirilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov İdarəetmə, Ali Məclis sədrinin müavini Arzu Abdullayev Monitorinq, Ali Məclisin deputatı Xumar Məmmədova isə Sosial İnklüzivlik komitələrinin iclaslarında iştirak ediblər.

Komitə iclaslarından sonra Konqresin 51-ci sessiyasının açılış mərasimi keçirilib.

Qeyd edək ki, sessiyanın gündəliyinə Konqresin 2026-2031-ci illər üzrə prioritetlərinin müəyyənləşdirilməsi, yerli və regional səviyyələrdə demokratiyanın möhkəmləndirilməsi, yerli özünüidarəetmə sisteminin inkişafı, regionlararası əməkdaşlıq və böhranlar zamanı dayanıqlılığın artırılması ilə bağlı məsələlər daxil edilib.



Səlahiyyətli nümayəndəliyə “mygov” platforması üzərindən vətəndaşların birbaşa müraciət imkanı təmin edilib

Muxtar respublika sakinləri qarşılaşdıqları problemlər, onları narahat edən sosial-iqtisadi məsələlər, eləcə də təklif və şikayətləri ilə bağlı “mygov” platforması vasitəsilə də səlahiyyətli nümayəndəliyə birbaşa müraciət edə bilərlər.

Bu imkan vətəndaşların gündəlik həyatına təsir edən məsələlərin daha operativ çatdırılmasına, müraciətlərin aidiyyəti üzrə yönləndirilməsinə və onlara çevik baxılmasına şərait yaradır. Səlahiyyətli nümayəndəliyin və muxtar respublikanın aidiyyəti icra qurumlarının səlahiyyətlərinə aid məsələlər üzrə müraciətlərin icra vəziyyətinin izlənilməsi də portal vasitəsilə mümkün olur.

Əsas məqsəd vətəndaşların problemlərinin qısa müddətdə həllinə nail olmaq, müraciət imkanlarını genişləndirmək və vətəndaşlarla dövlət qurumları arasında birbaşa əlaqəni gücləndirməkdir.



Ali Məclisin deputatı Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Regionlar Palatasının vitse-prezidenti seçilib

27-29 oktyabr tarixlərdə Fransanın Strasburq şəhərində keçirilən Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 51-ci sessiyasında Konqresin bir sıra rəhbər vəzifələrinə, o cümlədən Regionlar Palatasının vitse-prezidenti vəzifəsinə seçkilər keçirilib.

Avropa Mühafizəkarları və İslahatçıları Qrupunun namizədi Azərbaycan nümayəndə heyətinin üzvü, Ali Məclisin deputatı Xumar Məmmədova keçirilən səsvermə nəticəsində Konqresin Regionlar Palatasının vitse-prezidenti seçilib. Bununla da Xumar Məmmədova Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Bürosunda təmsil olunmaq hüququ qazanıb. Bu, Azərbaycanın Avropa Şurasına 25 illik üzvlüyü tarixində ilk dəfə



olaraq ölkəmizin Konqresin rəhbər orqanında – Bürosunda təmsil olunması baxımından mühüm tarixi nailiyyətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti

Cari ildə Naxçıvan Muxtar Respublikasında tikinti-quraşdırma işlərinə investisiya qoyuluşu əhəmiyyətli dərəcədə artıb



✍ Əli CABBAROV

İstehsal-iqtisadi əlaqələrinin yenidən formalaşdığı müasir mərhələdə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətində əsas vəzifələrdən biri uzunmüddətli və dinamik iqtisadi artıma nail olmaq üçün mövcud resursları iqtisadi dövriyyəyə cəlb etməkdir. Bu baxımdan, tikinti-quraşdırma işlərinə yönəldilən investisiyalar dayanıqlı iqtisadi artım üçün yeni imkanlar yaratmaqla yanaşı, yerli resurslardan səmərəli istifadəni, məşğulluğun genişləndirilməsini və yeni istehsal güclərinin işə salınmasını da stimullaşdırır.

Naxçıvanda müşahidə olunan iqtisadi fəallıq bu baxımdan diqqətəlayiq göstəricilərlə səciyyələnir. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəsmi məlumatına əsasən 2026-cı ilin yanvar-sentyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 238 milyon 196 min 500 manat investisiya yönəldilib. Bu, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 37,4 faiz çoxdur.

İnvestisiyaların 198 milyon 484 min 300 manatı və ya 83,3 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub. Bu göstərici də əvvəlki ilin eyni dövrü ilə müqayisədə 41,9 faiz artıb. Rəqəmlər göstərir ki, cari ilin ilk doqquz ayında yeni əsas kapitalın yaradılması və mövcud infrastrukturun yenilənməsi istiqamətində investisiya fəallığı əhəmiyyətli dərəcədə yüksəlib. Bu prosesin davamlı xarakter alması gələcəkdə istehsal və xidmət həcminin artmasına, yeni iş yerlərinin açılmasına, sahibkarlıq gəlirlərinin yüksəlməsinə və vergi daxilolmalarının genişlənməsinə şərait yarada bilər.

Naxçıvanda mövcud istehsal və əmək resurslarından istifadənin səmərəliliyi baxımından investisiyaların real iqtisadi fəaliyyətə vaxtında cəlb edilməsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, əsas kapitala yönəldilən vəsaitlərin düzgün istiqamətləndirilməsi, onların iqtisadi səmərəsinin artırılması və yeni istehsal imkanlarının formalaşdırılması regionda iqtisadi fəallığın davamlılığını təmin edən əsas şərtlərdəndir.

İnvestisiyaların strukturuna nəzər saldıqda qeyri-dövlət sektorunun payının daha yüksək olduğu görünür. Belə ki, 2026-cı ilin yanvar-sentyabr aylarında əsas kapitala yönəldilən investisiyaların 100 milyon 758 min 100 manatı və ya 42,3 faizi dövlət sektorunun, 137 milyon 438 min 400 manatı və ya 57,7 faizi isə qeyri-dövlət sektorunun payına düşüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə dövlət sektorunda investisiyalar 30,9 faiz, qeyri-dövlət sektorunda isə 42,7 faiz artıb. Bu dinamika özəl təşəbbüslərin və sahibkarlıq fəaliyyətinin investisiya prosesindəki rolunun artdığını göstərir.

İnvestisiya qoyuluşlarının sahələr üzrə bölgüsü də diqqətəlayiqdir. Hesabat dövründə vəsaitlərin 116 milyon 367 min 700 manatı və ya 48,9 faizi məhsul istehsalı sahələrinə, 27 milyon 152 min 700 manatı və ya 11,4 faizi xidmət sahələrinə, 94 milyon 676 min 100 manatı və ya 39,7 faizi isə yaşayış evlərinin tikintisinə yönəldilib.

Muxtar respublikada yeni yaşayış binalarının inşası, istehsal müəssisələrinin yaradılması, elektrik enerjisi təsərrüfatının yenidən qurulması, kənd təsərrüfatında su təminatının yaxşılaşdırılması və nəqliyyat sahəsinə ayrılan vəsaitlər investisiya fəallığının artmasına təsir göstərən əsas istiqamətlər sırasındadır. Bu layihələr bir tərəfdən infrastrukturun yenilənməsinə, digər tərəfdən isə istehsal və xidmət fəaliyyətinin genişlənməsi üçün zəruri şəraitin yaradılmasına xidmət edir.

Ümumilikdə, cari ilin doqquz ayında yönəldilən investisiyaların həcmi və strukturuna nəzər saldıqda onların Naxçıvan iqtisadiyyatının şaxələndirilməsi üçün əhəmiyyətli imkanlar yaratdığını görmək mümkündür. Xüsusilə məhsul istehsalı sahələrinə yönəldilən vəsaitlər gələcəkdə emal sənayesi, turizm və logistika kimi sahələrdə əlavə dəyərin yaradılmasına, iqtisadi fəaliyyətin genişlənməsinə təkan verə bilər. Bu baxımdan, investisiyalara yalnız cari iqtisadi göstərici kimi deyil, regionun uzunmüddətli inkişaf potensialına yönəldilən sərmayə kimi yanaşmaq vacibdir.

Bununla yanaşı, yaşayış evlərinin tikintisinə yönəldilən investisiyaların həcmi də diqqət çəkir. Bu istiqamətdəki vəsaitlərin ümumi investisiyalarda 39,7 faizlik paya malik olması tikinti sektorunun iqtisadi fəallıqda mühüm yer tutduğunu göstərir. Yaşayış sahələri tikintisinin genişlənməsi əhalinin mənzil təminatının yaxşılaşdırılması baxımından əhəmiyyətli olmaqla yanaşı, tikinti materialları istehsalı, nəqliyyat və digər əlaqəli sahələrdə də iqtisadi fəallığa müsbət təsir göstərə bilər.

Beləliklə, 2026-cı ilin yanvar-sentyabr aylarında Naxçıvanda əsas kapitala və xüsusilə tikinti-quraşdırma işlərinə investisiya qoyuluşunun əhəmiyyətli dərəcədə artması regionun iqtisadi inkişafı baxımından müsbət tendensiyadır. Bununla belə investisiya artımının uzunmüddətli nəticələri həmin vəsaitlərin nə dərəcədə səmərəli istifadə olunmasından, yeni istehsal güclərinin yaradılmasından, məşğulluğun genişləndirilməsindən və qeyri-neft sektorunda əlavə dəyərin artırılmasından asılı olacaqdır. Əsas məqsəd investisiya artımını davamlı iqtisadi inkişafla uzlaşdırmaq, mövcud potensialı real istehsal və xidmət nəticələrinə çevirməkdir.

Naxçıvanda daha məhsuldar və dayanıqlı məşğulluğa keçid formalaşır

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafında və əhalinin rifahının yüksəldilməsində mühüm rol oynayan məşğulluğun təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Son dövrlərdə həyata keçirilən investisiya layihələri, sahibkarlığa dəstək tədbirləri və özünüməşğulluq proqramları regionda yeni iş imkanlarının yaradılmasına, əmək resurslarından səmərəli istifadəyə və əhali üçün davamlı gəlir mənbələrinin formalaşdırılmasına xidmət edir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələri əmək bazarının göstəricilərində də əks olunur. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəsmi məlumatına əsasən 2026-cı ilin yanvar-sentyabr aylarında muxtar respublikada 1004 yeni iş yeri yaradılıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 371 iş yeri və ya 59 faiz çoxdur.

Yeni yaradılan iş yerlərinin 697-si, yaxud 69 faizi qeyri-dövlət sektorunun, 307-si və ya 31 faizi isə dövlət sektorunun payına düşüb. İş yerlərinin 852-si yeni fəaliyyətə başlayan 117 müəssisə və təşkilatda, 152-si isə mövcud 31 müəssisədə yaradılıb. Bu göstəricilər yeni müəssisələrin fəaliyyətə başlamasının məşğulluğun genişlənməsində mühüm rol oynadığını, eyni zamanda özəl sektorun yeni iş yerlərinin yaradılmasında üstün mövqeyə malik olduğunu göstərir.

Qeyri-dövlət sektoruna dəstəyin genişləndirilməsi, sahibkarlıq fəaliyyətinin təşviqi və investisiya imkanlarının artırılması Naxçıvanda əmək bazarının inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Cari ilin yanvar-sentyabr aylarında qeyri-dövlət sektorunda yaradılan yeni iş yerlərinin sayı dövlət sektorundakı göstəricini iki dəfədən çox üstələyib. Bu, sahibkarlıq subyektlərinin əhalinin məşğulluğunun təmin olunmasında rolunun artdığını göstərir. Kiçik və orta sahibkarlığın dəstəklənməsi, istehsal potensialının genişləndirilməsi və yeni investisiyaların cəlb edilməsi isə məşğulluğun uzunmüddətli və dayanıqlı artımının əsas şərtlərindəndir.



Yeni iş yerlərinin yaradılmasına istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, tikinti və infrastruktur layihələrinin həyata keçirilməsi, eləcə də iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilən investisiyaların artması da təsir göstərir. Bu baxımdan, sosial və infrastruktur layihələri çərçivəsində yaradılan iş yerləri xüsusi əhəmiyyət daşıyır. Belə ki, Naxçıvan Regional DOST Mərkəzinin fəaliyyətə başlaması ilə 43, “Naxçıvan Avtomobil Yollarının Yaşıllaşdırılması” Məhdud Məsuliyyətli Cəmiyyətində isə 223 yeni iş yeri yaradılıb. Bu müəssisə və təşkilatlarda məşğulluğun genişlənməsi ümumi göstəricilərin artımına töhfə verib.

Əhalinin məşğulluğunun təmin edilməsində özünüməşğulluq proqramları da mühüm mexanizm kimi çıxış edir. Bu proqramların əsas məqsədi işsiz şəxsləri yalnız mövcud iş yerlərinə yönəltmək deyil, həm də onların öz təsərrüfatlarını və kiçik bizneslərini quraraq müstəqil gəlir mənbəyi əldə etmələrinə şərait yaratmaqdır. Xüsusilə kənd təsərrüfatı, istehsal və xidmət sahələrində belə təşəbbüslər iqtisadi fəallığın artırılması, kiçik təsərrüfatların genişləndirilməsi və özünüməşğulluğun təşviqi baxımından əhəmiyyətlidir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamına əsasən icra edilən özünüməşğulluq proqramı çərçivəsində 2026-cı ilin ötən dövründə muxtar respublikada öz biznesini qurmaq istəyən 114 işsiz şəxsə müvafiq aktivlər təqdim edilib. Onlardan 50 nəfəri qoyunçuluq, 44 nəfəri arıçılıq üzrə olmaqla, ümumilikdə, 94 nəfər kənd təsərrüfatı sahəsində, 20 nəfər isə istehsal və xidmət istiqamətində fəaliyyət göstərmək üçün əmlaklarla təmin olunub. İlin sonunadək proqram çərçivəsində əlavə məşğulluq imkanlarının yaradılması nəzərdə tutulur.

Göründüyü kimi, muxtar respublikada məşğulluğun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər əhalinin iqtisadi fəallığının yüksəldilməsinə və davamlı gəlir imkanlarının genişləndirilməsinə yönəldilir. Yeni fəaliyyətə başlayan müəssisə və təşkilatların məşğulluq payında çox yer tutması, qeyri-dövlət sektorunun yeni iş yerlərinin yaradılmasında üstün mövqeyə malik olması və özünüməşğulluq imkanlarının genişləndirilməsi əmək bazarında daha fəal və sahibkarlıq yönümlü modelin formalaşdığını göstərir.

Beləliklə, 2026-cı ilin doqquz ayında Naxçıvanda yeni iş yerlərinin sayının artması, qeyri-dövlət sektorunun məşğulluqda üstün mövqeyə malik olması və özünüməşğulluq imkanlarının genişləndirilməsi əmək bazarında müsbət meyillərin formalaşdığını göstərir. Qarşıdakı dövrdə əsas vəzifə yalnız yeni iş yerlərinin sayını artırmaq deyil, həm də onların davamlılığını təmin etmək, əmək məhsuldarlığını yüksəltmək və əhali üçün daha sabit gəlir imkanları yaratmaqdır. Məhz bu amillər məşğulluğun kəmiyyət göstəricilərinin keyfiyyət dəyişiklikləri ilə tamamlanmasına və regionda dayanıqlı iqtisadi inkişafın möhkəmlənməsinə zəmin yarada bilər.

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən 2026-cı ilin noyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

S/n	Qəbulu keçiriləcək mərkəzi icra hakimiyyəti orqanının rəhbəri	Qəbulun keçiriləcəyi şəhər, rayon	Qəbulun keçiriləcəyi gün
1.	**Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri** Fərid Bağırzadə	Culfa	02.11.2026
2.	**Naxçıvan Muxtar Respublikasının təhsil naziri** Ovni Muradov	Ordubad	12.11.2026
3.	**Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri** Süleyman Neymətov	Şahbuz	13.11.2026
4.	**Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Hüseyn Səfərov	Sədərək	18.11.2026
5.	**Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Məcid Seyidov	Babək	19.11.2026
6.	**Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri** Şahin Mirzəyev	Kəngərli	20.11.2026
7.	**Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Azər Məmmədrəhimov	Şahbuz	27.11.2026

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 11^{00}-da başlayır.


Azad Vətənin hər qarışında bir igidin qəhrəmanlıq dastanı var

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının yaddaşında yalnız qazanılan Zəfərlə deyil, bu qələbəyə aparan yolda göstərilən qəhrəmanlıq və fədakarlıqla, şəhidlərimizin əziz xatirəsi ilə də yaşayacaq. 2020-ci ildə Azərbaycan Ordusunun əsgər və zabitləri illərdir, həsrətində olduğumuz torpaqların azadlığı uğrunda döyüşə atıldılar. Hər qarış torpaq uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Bu gün Qarabağın azadlığı ilə nəticələnən Zəfərin arxasında minlərlə hərbçinin keçdiyi çətin və şərəfli döyüş yolu dayanır.

Həmin döyüş yolunun izlərini ömrünün sonuna qədər daşıyacaq insanlardan biri də qazi Sahib Əbülfəzlidir. Onun üçün hərbçi olmaq, sadəcə, peşə deyil, Vətənə xidmətin və üzərinə götürdüyü məsuliyyətin ifadəsidir. Uşaqlıqdan seçdiyi bu yol onu hərbi təhsilə, daha sonra Azərbaycan Ordusunun sıralarına və 2020-ci ildə Qarabağın azadlığı uğrunda döyüşlərə aparıb.

Sahib Əbülfəzli 1997-ci il dekabrın 1-də Culfa rayonunun Yaycı kəndində anadan olub. Hərb sənətinə marağı onu 2012-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə gətirib. Burada aldığı təhsil gələcək zabit kimi formalaşmasında mühüm rol oynayıb. 2015-ci ildə liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı ixtisası üzrə təhsilini davam etdirib. Ali hərbi təhsilini başa vuraraq 2019-cu ildən Vətənə xidmətə başlayıb.

Xidmətinin ilk illərində taqım komandiri vəzifəsində çalışan Sahib Əbülfəzli sonralar bölük komandiri vəzifəsinədək yüksəlib. Komandir kimi fəaliyyəti isə ona yalnız şəxsi məsuliyyət deyil, tabeliyindəki hər bir hərbçinin həyatına görə cavabdehlik də yükləyib. Bu baxımdan, 2020-ci il onun hərbi xidmətində ən şərəfli mərhələlərdən biri olub.



Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılan Sahib Əbülfəzli Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut və Şuşa istiqamətlərində vuruşub. Döyüş yolu onu Şuşaya qədər gətirib. Şəhərin azadlığı uğrunda gedən ağır döyüşlər zamanı yaralanan zabiti döyüş meydanından silahdaşları çıxarıblar. Bu hadisə onun həyatında yeni mərhələnin başlanğıcı olsa da, həmin günlərdə yaşananlar, xüsusilə silahdaşlarının fədakarlığı və döyüşçülər arasındakı birlik hissi yaddaşında əbədi iz buraxıb.

Sahib Əbülfəzlinin keçdiyi döyüş yolu dövlət tərəfindən də yüksək qiymətləndirilib. O, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.



Müharibədən sonra hərbi sahədə qazandığı təcrübəni başqa istiqamətdə davam etdirən qazi hazırda Müdafiə Sənayesi Nazirliyində çalışır. O burada bilik və bacarığını ölkəmizin müdafiə imkanlarının daha da gücləndirilməsinə yönəldir. Bu yaxınlarda Bakıda keçirilən "ADEX" sərgisində "SƏDA" adlı layihəsi ilə iştirak etməsi də onun bu istiqamətdə fəaliyyətinin göstəricisidir.

Kamera və monitordan ibarət olan "SƏDA" silahın üzərinə bərkidilir və əsgərə maneənin arxasında gizlənən düşməni özünü təhlükəyə atmadan müşahidə etmək imkanı yaradır. Kamera vasitəsilə əldə olunan görüntülər monitora ötürülür, monitor isə kaskaya yerləşdirilə bilir. Beləliklə, əsgər başını maneənin arxasından çıxarmadan ərazini izləyə, gizlənən düşmənin, o cümlədən snayperin yerini müəyyənləşdirə bilir. Kamera silahın üzərindəki nişangahın xüsusiyyətlərindən asılı olaraq gecə və gündüz görüntülərini monitora ötürür. Qurğunun digər üstünlüyü isə kamera ilə monitor arasındakı əlaqənin dalğa qırıcı vasitələrlə belə kəsilməməsidir. İxtiranın əsas məqsədi döyüş zamanı əsgərlərin təhlükəsizliyini artırmaq və düşmənin yerini müəyyənləşdirməyi asanlaşdırmaqdır.

Beləliklə, bir vaxtlar döyüş meydanında Vətənin müdafiəsi uğrunda mübarizə aparan zabit bu gün hərbi sahədə qazandığı təcrübəni yeni texnologiyaların yaradılmasına yönəldərək müdafiə sənayesinin inkişafına töhfə verir.

Dövlətin müharibə iştirakçılarına və qazilərə göstərdiyi diqqət və qayğı Sahib Əbülfəzlinin həyatında da öz əksini tapıb. O, mənzil və avtomobillə təmin olunub. Qazinin sözlərinə görə, bu dəstək müharibə iştirakçıları və qazilər üçün həm sosial, həm də mənəvi baxımdan böyük əhəmiyyət daşıyır. Bu gün iki övlad atası olan qazi həm müdafiə sənayesi sahəsində fəaliyyətini davam etdirir, həm də qazandığı təcrübənin gələcək nəsillərə ötürülməsini vacib hesab edir.

Onun həyat yolu bir daha göstərir ki, Vətənə xidmət yalnız döyüş meydanında göstərilən şücaətlə məhdudlaşmır. Bu xidmət sonrakı illərdə də bilik, bacarıq və məsuliyyətlə davam edir. Azad Vətənin hər qarışında yazılan qəhrəmanlıq dastanları da məhz belə insanların şərəfli ömür yolu ilə yaşayır.

Zəhra VƏLİYEVA

"Özü öpsün həsrət dolu üzümdən"

... Həyətin qapısı açılanda ailə üzvlərinin baxışları bir anlıq böyük qapıya yönəlir. Yenə bir ümidlə gözləyirlər. Bəlkə illərdir, intizarında olduqları xəbəri kimsə gətirib? Bəlkə bir vaxtlar Vətənin müdafiəsinə yollanan oğulları geri dönüb? Amma qapıdan yenə başqa insanlar kimi biz daxil oluruq içəri. İllər keçir, günlər bir-birini əvəzləyir. Hər qapı taqqıltısında, hər ayaq səsində onların saçlarına bir az da dən düşür. İntizar isə dəyişməz iç səslərinə çevrilir. "İtkin şəhid ailələrinin həyatında zamanın yolu tam fərqli istiqamətdən axır", – deyirlər. İllər bir-birini əvəz etsə də, onların yaddaşında hər şey son telefon danışığında, son sözdə, bir daha görə bilmədikləri doğmalarının simasında donub qalır. Bəzən bir əşya, bir foto illərin danışa bilmədiyi həqiqətləri, duyğuları, hissləri söyləyir. Özü də səssiz-səmirsiz. Bəzən isə bu səssizlik ən ağır fəryada çevrilir.

Onlar üçün Vətən, sadəcə, doğulduqları torpaq deyildi. Vətən ailələri, doğmaları, böyüdükləri küçələr, uşaqlıq xatirələri, gələcək nəsilləri azad yurdda görmək üçün yaşadıqları duyğu idi. Həyatda elə adlar var ki, zaman keçdikcə yaddaşlardan silinmir, əksinə, daha da ucalaraq ailələrinin, doğmalarının və bütöv bir xalqın qəlbində yaşamağa davam edir. İbrahim Vəlizadənin adı da belə adlardandır. O, Vətən qarşısında öz borcunu yerinə yetirmək üçün döyüşə yollanan, taleyini Azərbaycanın taleyi ilə bağlayan igid oğullardan idi. Onun həyatında uşaqlıq xatirələri, ailəsi, doğmaları, arzuları, ən əsası gələcəyə dair planları vardı. Lakin ölkənin ağır günləri bütün bunlardan daha böyük bir məsuliyyəti önə çıxardı: Vətəni qorumaq.



"Bir ana, ata üçün oğlunun olması qürurdur, yoxluğu isə böyük həsrətdir. Həqiqətən də, İbrahimin həsrəti çox çətindir, ağırdır, acıdır. Çəkmək olmur, dözmək olmur. Amma dözürük. Bir şey var: Vətən uğrunda gedən oğullar həmişə ölməzdir, qəhrəmandır. Bütün şəhidlərimiz qəhrəmandır" – məğrur duruşunun titrək səsindən eşidirik Xurşud ananı. Bəli, bu gün İbrahimdən danışarkən insanın dilinə ilk olaraq "itkin" sözü gəlir.

Amma onun ailəsi üçün İbrahim yalnız itkin deyil. O, illərdir, yolu gözlənilən bir övlad, qardaş, doğma, əziz insandır. İtkinlik bəzən ölüm xəbərindən də ağır olur. Çünki burada hər qapı döyüləndə "bəlkə..." deyərək yenidən ümidlənən bir ana ürəyi, bir ata qəlbi var.

Deyilən son sözlər, son telefon danışığının təfərrüatları ailənin yaddaşında silinməz iz buraxıb. Heç kim bilməzdi ki, həmin danışıq illərlə davam edəcək bir intizarın başlanğıcı olacaq. Atası Səməd kişi ona "dədə" deyərdi, ata adının hörmətinə görə. "Başına dönüm, bala, qurban olum" deyədeyə nəsə hiss etmişdi sanki anası: "Amma İbrahim heç bir sirri bizə verməzdi. Son danışığında da üzündə başqa bir mimika yox idi, gülüşü doğulduğu gün kimi yadımdadı. Balaca oğlum yanımda idi. Dedi, Vurğun, yaxşı oxu dərslərini. Atamın, anamın sözünə bax, üzlərindən öp, görüm mən də. Oğlumun yoxluğu məni çox üzür. Həqiqətən, amma içimdə bir hiss var ki, oğlum bu dəqiqə xidmətdədir, onu xidmətdə hiss edirəm. Allah xeyirli bir xəbərini yetirsin mənim balamın. Özü öpsün həsrət dolu üzümdən".



İlahi, bu qədər ağır cümlə olar?! Bir atanın dilindən çıxan bu sözlərdə necə böyük bir həsrət, necə bitməyən ümid var?! İtkinlik yalnız yoxluq deyil. Bu, cavabı bilinməyən suallarla yaşamaq, ümidlə qorxu arasında qalmaq, hər qapı döyülməsini bir qayıdış arzusu kimi qarşılamaq hər gün eyni sualı özünə verməkdir: Görəsən, nə baş verdi? Vəliyevlər ailəsi üçün də ən ağır olan təkcə zamanın keçməsi deyil, qeyri-müəyyənlikdir. Çünki cavab olmadıqda hər ehtimal insanın düşüncəsində yaşayır, ümid isə elə bu qeyri-müəyyənliyin içində özünə yer tapır.

Bəzən ailənin susqunluğu bütün sözlərdən daha çox danışır. İbrahim Vəlizadənin həyat hekayəsinin arxasında uşaqlıq xatirələri, ailə sevgisi, Vətənə bağlılıq və yarımçıq qalmış arzular dayanır. Hər il onun yoxluğu daha dərindən duyulur, onunla bağlı xatirələr isə ailəsi üçün həm kədərə, həm də qürura çevrilir.

Bu gün ailənin səssiz otağında İbrahimdən yadigar qalan əşyalar qorunur. Onları 2022-ci ildə atası axtarışlar zamanı tapıb. Səməd Vəliyev həmin günləri belə xatırlayır: "Axtarışlarda özüm iştirak etmişəm. Zərbə almış telefonunu tapdım. Nə qədər çalışsaq da, telefon işlək vəziyyətə düşmədi. Sonra ayağına kəmərlə bağlanan tapançasını tapdıq, güllə dəymişdi. Ən axırda avtomatını atmışdı, maqazini boş idi. Və şəxsi əşyasını tapdım, onu da evdə, burada saxlayırıq".

Bu hekayələr yalnız keçmişdən danışmır. Onlar bu günümüzə də səslənir. "Canın o torpaqdan dəyərlidirsə, üstündə gəzdiyin torpaq sənin Vətənin ola bilməz". Bəli, bu fikirləri İbrahim döyüşə getməmişdən qabaq yazmışdı. "Murov qartalı"nın adını bu gün qardaşının övladı daşıyır. "Bu mənə böyük qürur, fəxr verir. Qardaşı olaraq qardaşımın istəyini, arzusunu yaşatmaq üçün öz övladıma qardaşımın adını qoymuşam. Ümid edirəm ki, mənim qardaşımın döyüşdüyü o torpaqlarda, onun adını daşıyan övladım Vətən qarşısında öz borcunu yerinə yetirər, xidmət göstərər və əmisinin adını yaşadar", – deyir qardaşı İlkin Vəliyev. Bəzi insanlar tarixə öz adları ilə yazılır, bəziləri isə taleləri ilə. "Üstündə gəzdiyin torpaq sənə Vətən ola bilməz", – deyən İbrahim yaddaşımızda yaşayan bir tarixdir. Şəhidimizin adı çəkiləndə yalnız bir insan xatırlanmır. Həmin adla birlikdə bir ailənin ağrısı, bir xalqın yaddaşı, Vətən uğrunda mübarizənin ağır səhifələri yada düşür.

Şəhidlik Vətən uğrunda göstərilən ən böyük fədakarlığın ifadəsidir. İbrahim Vəlizadənin həyat hekayəsi bir ailənin ağrısı ilə qəlbimizə toxunur, xalqımızın yaddaşında isə Vətənə bağlılığın, sədaqətin və yarımçıq qalmış arzuların rəmzi kimi yaşayır. Onun haqqında danışmaq yalnız keçmişi xatırlamaq deyil, həm də gələcək nəsillər qarşısında məsuliyyətimizi dərk etməkdir. Çünki Vətən yalnız torpaqdan ibarət deyil. O həm də uğrunda mübarizə aparan insanların xatirəsi, doğmalarının həsrəti, ailələrin illərdir, yolunu gözlədiyi ümiddir.

Bəzi insanlar itkin düşür, amma adları heç vaxt itmir. İbrahim Vəlizadə kimi...

Ceyhun MƏMMƏDOV

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

№	Deputat	Tarix, saat və yer	Əlaqələndirici şəxslər və əlaqə nömrələri
1.	1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu	13.11.2026, saat 10[00], Sədərək rayonu, Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Əhmədli Abbas Paşa oğlu, 060-570-70-60
2.	2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı	13.11.2026, saat 10[00], Sədərək rayonu, Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Novruzov Elçin Abil oğlu, 060-569-45-73
3.	3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu	20.11.2026, saat 16[00], Şərur rayonu, Axaməd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51
4.	5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı	18.11.2026, saat 15[00], Şərur rayonu, Muğanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85
5.	6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı	13.11.2026, saat 15[00], Şərur rayonu, Çəmənli kənd tam orta məktəbinin binası	Məmmədova Nuranə Arif qızı, 077-372-39-98
6.	7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu	17.11.2026, saat 10[30], Şərur rayonu, Siyaqut kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Novruzzadə Sevindik Azad oğlu,060-452-93-33
7.	8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu	12.11.2026, saat 15[30], Şərur rayonu, Zeyvə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	İmanov Eldar Yaşar oğlu, 051-927-64-62
8.	9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu	16.11.2026, saat 11[00], Şərur rayonu, Mahmudkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Əliyev Mehman Vəli oğlu, 050-647-50-04
9.	10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı	02.11.2026, saat 15[00], Şərur rayonu, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası	İsmayılov Tural Səid oğlu, 060-206-60-60
10.	11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı	04.11.2026, saat 15[00], Şərur rayonu, Yuxarı Daşarx kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14
11.	12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu	18.11.2026, saat 15[00], Şərur rayonu, Qışlaqabbas kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86
12.	13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu	12.11.2026, saat 15[00], Şərur rayonu, Danyeri kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	İmanov Eldar Yaşar oğlu, 051-927-64-62
13.	14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu	19.11.2026, saat 10[30], Kəngərli rayonu, Yurdçu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Cəlilov İbrahim Elman oğlu, 050-707-20-12
14.	15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı	05.11.2026, saat 11[00], Kəngərli rayonu, Şahtaxtı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Məmmədova Şənay Bəhlul qızı, 055-503-08-25
15.	16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu	04.11.2026, saat 12[00], Kəngərli rayonu, Çalxanqala kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10
16.	17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu	16.11.2026, saat 15[00], Babək rayonu, Araz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Abutalıbov Mədət Arif oğlu, 050-740-20-40
17.	18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu	11.11.2026, saat 15[00], Babək rayonu, Çeşməbasar və Güznüt kənd sakinləri, Güznüt kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Axundov Simral Fərəc oğlu, 050-289-05-78
18.	19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı	02.11.2026, saat 10[00], Babək rayonu, Hacıvar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56
19.	20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu	04.11.2026, saat 11[00], Babək rayonu, Qahab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25
20.	21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu	18.11.2026, saat 15[00], Babək rayonu, Sirab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01
21.	22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu	11.11.2026, saat 11[00], Babək rayonu, Yuxarı Uzunoba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95
22.	23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı	20.11.2026, saat 12[00], Babək rayonu, Cəhri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Quliyev Emil Orxan oğlu, 077-545-85-90 Əliyeva Fidan Hüseyn qızı, 051-533-71-71
23.	24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı	19.11.2026, saat 15[00], Naxçıvan şəhəri, Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Seyidli Sabirə Azər qızı, 077-371-42-09
24.	25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı	03.11.2026, saat 11[00], Naxçıvan şəhəri, 4 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36
25.	26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu	13.11.2026, saat 16[00], Naxçıvan şəhəri, Əlincə və Əliqulu Qəmküsar küçələri, səyyar qəbul	Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85 Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13
26.	27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu	13.11.2026, saat 11[00], Naxçıvan şəhəri, 5 saylı Mənzil İstismar İdarəsinin binası	Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64
27.	28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı	13.11.2026, saat 17[00], Naxçıvan şəhəri, Həsən Əliyev küçəsi, bina 2, 11, səyyar qəbul	Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38
28.	29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu	20.11.2026, saat 15[00], Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası	Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23
29.	30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı	10.11.2026, saat 12[00], Naxçıvan şəhəri, Kazım Talıblı küçəsi, səyyar qəbul	Sadiqli Arzu Rza qızı, 060-384-34-30
30.	31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu	10.11.2026, saat 15[00], Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası	Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06
31.	32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu	02.11.2026, saat 16[00], Naxçıvan şəhəri, 4-cü küçə, səyyar qəbul	Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86
32.	33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı	11.11.2026, saat 11[00], Naxçıvan şəhəri, İslam Səfərli, Məhəmməd Tağı Sidqi və Əvəz Sadıq küçələri, səyyar qəbul	Sadiqli Arzu Rza qızı, 060-384-34-30
33.	34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı	11.11.2026, saat 15[00], Şahbuz rayonu, Şahbuzkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Rzayev Əli Firudin oğlu, 050-337-69-44
34.	35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı	04.11.2026, saat 12[00], Şahbuz rayonu, Qızıl Qışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51
35.	36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu	05.11.2026, saat 15[00], Babək rayonu, Didivar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası; saat 16[00], Nəzərabad kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Qasımov Bəhlul Fərəməz oğlu, 060-543-24-29
36.	37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu	13.11.2026, saat 10[00], Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Məmmədov Rəhman Abasət oğlu, 055-592-42-18; 077-569-43-65
37.	38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu	19.11.2026, saat 11[00], Culfa rayonu, Camaldın kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85
38.	40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu	13.11.2026, saat 10[00], Culfa rayonu, Ləkətağ kənd inzibati ərazi dairəsi, səyyar qəbul 13.11.2026, saat 11[00], Culfa rayonu, Boyəhməd kənd inzibati ərazi dairəsi, səyyar qəbul	Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77
39.	41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu	12.11.2026, saat 15[00], Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası 26.11.2026, saat 15[00], Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası	Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Sənəd dövriyyəsi və vətəndaş müraciətləri ilə iş şöbəsi, 036-544-01-43
40.	42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu	05.11.2026, saat 15[00], Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası 18.11.2026, saat 15[00], Ordubad rayonu, Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası 19.11.2026, saat 15[00], Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası	Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Sənəd dövriyyəsi və vətəndaş müraciətləri ilə iş şöbəsi, 036-544-01-43
41.	43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu	02.11.2026, saat 15[00], Ordubad rayonu, Kələki kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01
42.	44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu	06.11.2026, saat 16[00], Ordubad rayonu, Düylün kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Rzayev Elmir Elmar oğlu, 055-317-62-01
43.	45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı	15.11.2026, saat 10[00], Ordubad rayonu, Aza kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası	Əlizadə Polad Pərviz oğlu, 060-441-26-29

26 oktyabr - 1 noyabr 2020-ci il

Prezident İlham Əliyev:

"Biz şəhərlərə, mülki şəxslərə hücum etmirik, yalnız döyüş meydanında cavab veririk".

Vətən müharibəsinin xronikası

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. 44 günlük müharibə xalqımıza zəfər sevincini yaşatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Zəfər yürüşü gənc və gələcək nəsillərə Vətən məhəbbətinin təkrarsız örnəyidir.

26 oktyabr – müharibənin 30-cu günü Prezident xalqa növbəti müjdəni verib

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ



Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə bağlı Prezident İlham Əliyev xalqa müraciət edib.

Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

Düşmən atəşkəs rejimini pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimini kobudcasına pozaraq Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərindəki bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlardan, minaatanlardan və toplardan atəşə tutub. Düşmən, həmçinin "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərinə atəş açıb. Ümumilikdə, oktyabrın 26-da Tərtər də daxil olmaqla yaşayış məntəqələrimizə 200-dən çox mərmi atılıb.

27 oktyabr – müharibənin 31-ci günü düşmənin ön idarəetmə məntəqəsi məhv edilib

Döyüş əməliyyatları, əsasən, cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də bir T-72 tankı, dörd D-30 və üç D-20 topu, bir "Osa-AKM" ZRK, bir BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir radiolokasiya stansiyası və altı avtomobil texnikası sıradan çıxarılıb.

Prezident İlham Əliyev İtaliyanın "RAI-1" televiziya kanalına müsahibə verib. Jurnalistin "Bir ildən sonra biz bu münaqi-



şədə hansı səviyyədə olacağıq? Münaqişənin həlli olacaqmı? Yoxsa bu, münaqişənin həlli olacaq?" sualına cavabında Prezident deyib: ***"Biz hər bir halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq".***

Tərtər şəhəri və rayonun kəndləri atəşə tutulub

– Düşmənin silahlı birləşmələri Goranboy və Bərdə rayonlarını müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutub.

– Baş Prokurorluğun məlumatına görə, Ermənistan ordusunun Bərdə rayonunu raket atəşinə tutması nəticəsində həlak olan mül-



ki şəxslərin sayı dördə çatıb.

– Ermənistan humanitar atəşkəs rejimini pozaraq Tərtər şəhərini və rayonun kəndlərini ağır artilleriyadan və "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutub.

28 oktyabr – müharibənin 32-ci günü

– Ermənistan ordusu Bərdəni raket atəşinə tutub, 21 dinc sakin həlak olub, 70-ə yaxın şəxs yaralanıb.

– Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş



meydanında işğalçılara layiqli cavab veriləcək.

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

Mehriban Əliyeva: "Düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz"

– Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib: "Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər. Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir. Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər hücum Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir. Bu hücumların məqsədi aydındır – Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi. Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz".

Düşmənin qüvvə və vasitələri, xeyli sayda hərbi texnikası darmadağın edilib

– Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad edib.

Bununla bağlı Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində məlumat verib.

– Prezident İlham Əliyev Ru-



siyanın "İnterfaks" Agentliyinə müsahibə verib.

– Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb.


– Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyərək döyüş meydanından qaçan düşmən qüvvələri, mülki infrastrukturu və dinc əhalini atəşə tutan şəxsi heyət bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

29 oktyabr – müharibənin 33-cü günü Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinə 13 ballistik raket atıb

– Döyüş əməliyyatları, əsasən, cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

– Ermənistan ordusunun yüksəkrütbəli bir neçə zabiti məhv edilib.

– Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq sentyabrın 27-də başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində indiyədək düşmənin xeyli sayda döyüş texnikası, hərbi sursatı məhv edilərək sıradan çıxarılıb və qənimət götürülüb.




Düşmənin ümumi itkiləri 2,7 milyard dollar dəyərində qiymətləndirilir – infoqrafika.

– ANAMA-nın məlumatına əsasən Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinə 13 ballistik raket atıb.

– Bərdədə mülki infrastruktur və dinc əhalimizi atəşə tutan düşmən bölmələri işğalçı ordunun qüvvə və vasitələri Azərbaycan Ordusunun bölmələri tərəfindən darmadağın edilib.

– Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki "Su-25" hücum təyyarəsi Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

– Ermənistanın işğal olunmuş ərazilərimizdə mədəni sərvəti və əmlakı məhv etməsi və talaması ilə bağlı cinayət işi başlanıb.



– Ermənistanın təxribatları nəticəsində həlak olan mülki şəxslərin sayı 90-a çatıb, 392 nəfər xəsarət alıb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

30 oktyabr – müharibənin 34-cü günü sərhəd zastavaları üzərində Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılıb

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

– Müdafiə Nazirliyinin məlumatına əsasən döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

– Bərdəni atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus bir "Smerç" yaylım atəşli reaktiv



sistemi, Bərdə və Tərtər şəhərlərinə atəş açan düşmənin iki "Smerç" sistemi məhv edilib.

– İşğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonları ərazisindəki sərhəd zastavaları üzərində Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılıb və bu zastavalar xidməti-döyüş fəaliyyətinə başlayıb.

31 oktyabr – müharibənin 35-ci günü

– Döyüş əməliyyatları, əsasən, Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Qoşunlarımızın müdafiə xəttinə yaxınlaşmağa cəhd göstərən Ermənistanın xüsusi təyinatlılardan ibarət kəşfiyyat-diversiya qrupunun fəaliyyətinin qarşısı qətiyyətlə alınıb. Bundan başqa cəbhənin digər istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi,



5 ədəd yaylım atəşli reaktiv sistemi, beş tankı, piyadaların üç döyüş maşını, 15 müxtəliftipli artilleriya topu, bir "Osa" zenit-raket kompleksi, bir radioelektron mübarizə stansiyası, üç avtomobil texnikası sıradan çıxarılıb.

– Prezident İlham Əliyev Almaniyanın "ARD" televiziya kanalına müsahibə verib.

– Qubadlını artilleriya atəşinə tutan düşmənə cavab zərbələri endirilib.

– Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 31-i saat 13^{00}-dək 91 mülki şəxs həlak olub, 404 nəfər yaralanıb, 2 min 465 ev, 97 çoxmənzilli yaşayış binası və 455 mülki obyekt yararsız vəziyyətə düşüb.

1 noyabr – müharibənin 36-cı günü

– Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd, Qubadlı və Zəngilan istiqamətlərində davam edib. Ordumuzun cavab tədbirləri nəticəsində düşmənin 8 müxtəliftipli topu,



2 rabitə qülləsi məhv edilib. Azərbaycan Ordusu müasir texnoloji silahlarla Ermənistan silahlı birləşmələrinin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini sıradan çıxarıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

– Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

– Düşmənin xeyli sayda canlı qüvvəsi aviazərbələrlə məhv edilib.

Şərurda payız əkin mövsümü: hədəf daha çox məhsuldarlıqdır

Rayonda 3700 hektar sahədə taxıl əkini nəzərdə tutulur

Payızda torpağa səpilən hər toxum gələn ilin məhsuluna bəslənən ümidin başlanğıcıdır. Şərur rayonunda fermerlər yeni əkin mövsümünə başlayaraq torpağı gələn ilin bərəkətinə hazırlayırlar. Sahələrdə traktorlar işləyir, əkin və suvarma tədbirləri davam etdirilir. Torpaqla çalışan insanların zəhməti, təcrübəsi və bol məhsula inamı isə yeni mövsümün əsas mənzərəsini yaradır.

Şərur Regional Dövlət Aqrar İnkişaf Mərkəzinin sektor müdiri Əli Babayevin sözlərinə görə, ra-



yonda taxıl əkini ardıcıl şəkildə davam etdirilir. O bildirir ki, 2026-cı ilin məhsulu üçün 2 635 hektar sahədə taxıl əkilib. Hər hektardan orta hesabla 45 sentner məhsul götürülüb, ümumi istehsal isə 11 min 860 ton təşkil edib. Hazırda 2027-ci ilin məhsulu üçün əkin işləri aparılır. Növbəti mövsümdə rayonda 3700 hektar sahədə taxıl əkilməsi proqnozlaşdırılır. Bu günədək 1166 hektar sahədə əkin həyata keçirilib. Bunun 391 hektarını arpa, 775 hektarını isə buğda sahələri təşkil edir.

Əkinlə yanaşı, sahələrin su təminatına da diqqət yetirilir. Rayonun əsas su mənbələrindən biri olan Arpaçay su anbarından ayrılan sağ və sol sahil kanalları, eləcə də çay yatağı və Araz çayı üzərində quraşdırılmış nasos stansiyaları vasitəsilə əkin sahələri suvarılır.

Əli Babayevin verdiyi məlumata görə, indiyədək əkilmiş 1166 hektar taxıl sahəsinin 1037,6 hektarında suvarma işləri aparılıb. Sektor müdiri taxılçılığın strateji əhəmiyyətini vurğulayaraq əkinlərin optimal müddətdə başa çatdırılmasını və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsini qarşıda duran əsas vəzifələrdən sayır.


Torpağa bağlılıq və bol məhsul ümidi

Şərurda əkin mövsümünün gedişi görülən işlərlə yanaşı, illərdir, torpaqla çalışan fermerlərin təcrübəsi və gələcək məhsula bəslədikləri ümidlərlə də səciyyələnir. Maxta kənd sakini, təsərrüfatçı Təvəkkül Cəfərov uzun illərdir, arpa və buğda



əkini ilə məşğuldur. Əvvəlki mövsümlərdə yaxşı məhsul əldə edən fermer bu il də zəhmətinin bəhrəsini görəcəyinə inanır.

"Uzun illərdir, təsərrüfatla



məşğulam, arpa, buğda əkirəm. Ötən il yüksək məhsul götürmüşəm. Bu il də əkin işlərini uğurla aparıram. Suyumuz boldur, elə bir çatışmazlığımız yoxdur. Allah bərəkət versin, əkinimiz yaxşı olsun", – deyə Təvəkkül Cəfərov bildirir.

Onun sözlərinə görə, əvvəlki mövsümlərdə hər hektardan, təxminən, 4-5 ton taxıl əldə edib. Bu nəticələr fermerdə yeni əkin mövsümündə də yüksək məhsuldarlığa nail olmaq inamını artırır.

Dizə kənd sakini Tağı Bağırov da uzun illərdir, kənd təsərrüfatı ilə məşğuldur. Təxminən, 25-30 illik əkinçilik təcrübəsi olan təsərrüfatçı ötən il 95 hektar sahədə taxıl əkdiyini, bu il isə əkin sahəsini genişləndirməyi planlaşdırdığını deyir.

"Bu il keçən ildəkindən bir qədər artıq əkmək istəyirik. Məqsədimiz yaxşı məhsul götürmək, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına öz töhfəmizi verməkdir. Artıq 20-30 hektar sahədə əkin aparmışıq, qalan sahələrdə də işləri davam etdirəcəyik. Ümumilikdə, bu il 100 hektara yaxın sahədə taxıl əkməyi nəzərdə tuturuq", – deyə təsərrüfatçı vurğulayır.

Tağı Bağırovun sözlərinə görə, ötən il sahələrdən, ümumilikdə,



200 tona yaxın taxıl əldə olunub. Fermer cari mövsümdə daha yüksək nəticə gözləyir. O qeyd edir ki, yağıntılar nəticəsində torpaqda nəmlik ehtiyatının yaranması əkin işlərinə müsbət təsir göstərib. Bununla belə gələcək məhsuldarlıq baxımından suvarmanın vaxtında və lazımi səviyyədə aparılması mühüm əhəmiyyət daşıyır.

Vaxtında əkin, düzgün suvarma – yüksək məhsuldarlığa doğru


Şərur rayonunda payız əkinlərinin davam etməsi taxılçılığın inkişafı üçün görülən işlərin ardıcıl xarakter daşıdığını göstərir. Fermerlərin əkin sahələrini genişləndirmək niyyəti də istehsalın artırılmasına marağın göstəricisidir. Bununla yanaşı, yüksək məhsuldarlıq yalnız əkin sahələrinin genişləndirilməsi ilə deyil, torpağın düzgün becərilməsi, aqrotexniki qaydalara əməl olunması və suvarmanın vaxtında aparılması ilə mümkündür.

Qarşıda duran əsas vəzifə nəzərdə tutulan 3 700 hektar sahədə əkin işlərini optimal müddətdə başa çatdırmaq, bitkilərin su təminatını diqqətdə saxlamaq və gələn ilin məhsulu üçün əlverişli şərait yaratmaqdır. Şərurlu təsərrüfatçıların torpağa bağlılığı, illərin təcrübəsi və bol məhsula inamı isə bir həqiqəti önə çəkir: torpağa vaxtında səpilən toxum, çəkilən zəhmət və suya qənaətlə yanaşma gələcək bərəkətin təməlidir.

14 min ton tutumlu 32 soyuducu anbar: Şərurda payızın bərəkəti qışın ruzisinə çevrilir

Payızda torpaqdan toplanan məhsulun bərəkəti yalnız bol məhsul əldə etməklə ölçülmür. Əsas məsələ bu nemәti keyfiyyətini itirmədən qorumaq, ilin bütün fəsillərində istehlakçıya çatdırmaq və fermerin zəhmətini iqtisadi faydaya çevirməkdir. Bu baxımdan, soyuducu anbarlar kənd təsərrüfatı məhsullarının tədarükü və saxlanmasında mühüm rol oynayır. Şərur rayonunda fəaliyyət göstərən belə anbarlar bağlardan toplanan meyvələrin, sahələrdən yığılan kartofun və digər kənd təsərrüfatı məhsullarının uzun müddət qorunmasına, mövsümi bolluğun davamlı təminata çevrilməsinə imkan yaradır.

Prezident İlham Əliyevin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu



illər üçün Dövlət Proqramı"nda da məhsulların saxlanması və itkilərin azaldılması məqsədilə soyuducu anbar infrastrukturunun genişləndirilməsi əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Şərurda bu sahədə yaradılan imkanlar yerli istehsalın qorunmasına, kənd təsərrüfatı məhsullarının bazarlara fasiləsiz çıxarılmasına xidmət edir.

Şərur Regional Dövlət Aqrar İnkişaf Mərkəzinin sektor müdiri Əli Babayevin sözlərinə görə, muxtar respublikanın iri kənd təsərrüfatı rayonlarından olan Şərurda yetişdirilən məhsulların saxlanması üçün geniş imkanlar mövcuddur. Rayonun 17 kəndində fəaliyyət göstərən 32 soyuducu anbarın ümumi tutumu 14 min tondur. Hazırda anbarlar, demək olar ki, tam doludur. Bu göstərici rayonda istehsal olunan məhsulun həcmini və onun mövsümdənkənar dövrdə də istehlakçılara çatdırılmasında anbar infrastrukturunun əhəmiyyətini aydın göstərir.

Əli Babayev qeyd edir ki, əsas məqsəd muxtar respublikanın bazarlarını ilin bütün fəsillərində yerli istehsal olan keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin etməkdir. Məhsulların lazımi şəraitdə saxlanılması həm onların xarab olmasının qarşısını alır, həm də istehsalçıya məhsulunu bazarın tələbatına uyğun vaxtda satışa çıxarmaq imkanı verir.

Rayonda soyuducu anbarlardan səmərəli istifadə edən təsərrüfat sahiblərindən biri də Düdəngə kənd sakini Əfrasiyab Qasımzadədir. Uzun illər müxtəlif sahələrdə çalışdıqdan sonra təqaüdə çıxan müsahibimiz kənd

təsərrüfatına marağını ailə təsərrüfatı yaratmaqla davam etdirib. Kartofçuluqla məşğul olub, meyvə bağları salıb, yetişdirdiyi məhsulun saxlanması üçün soyuducu anbar inşa etdirib.

Əfrasiyab Qasımzadə bildirir ki, təxminən, səkkiz ildir, fəaliyyət göstərən, 300 ton tutumu olan soyuducu anbar təsərrüfatının inkişafında mühüm rol oynayır. Anbarın yaradılması zamanı dövlət dəstəyindən də yararlanıb. Bununla yanaşı, kartof əkini ilə məşğul olur, alma və digər meyvələr yetişdirir. Onun sözlərinə görə, bu il əkin sahələrində məhsuldarlıq yaxşı olub. Yetişdirdikləri məhsulun bir hissəsini özləri



tədarük edərək anbara yerləşdirir, bununla da məhsulun keyfiyyətini daha uzun müddət qoruyurlar.

Fermer istehsal imkanlarını genişləndirmək istiqamətində də addımlar atıb. Belə ki, cari ildə istixana quraraq pomidor və xiyar yetişdirib. Məhsuldarlığın yaxşı olduğunu deyən təsərrüfat sahibi qarşıdakı qış aylarında da tərəvəz istehsalını davam etdirməyi və əhalinin tələbatının ödənilməsinə töhfə verməyi planlaşdırır.


Əfrasiyab Qasımzadənin fikrincə, kənd təsərrüfatının inkişafı üçün yalnız istehsalın artırılması kifayət deyil. Yetişdirilən məhsulun vaxtında tədarükü, düzgün saxlanılması və bazara çıxarılması da eyni dərəcədə vacibdir. Soyuducu anbarlar mövsüm ərzində bol olan məhsulun sonrakı aylarda da keyfiyyətini qorumasına şərait yaradır. Bu isə bir tərəfdən fermerin çəkdiyi zəhmətin bəhrəsini itirməməsi, digər tərəfdən istehlakçıların yerli məhsullarla təmin olunması deməkdir.

Şərurda fəaliyyət göstərən 32 soyuducu anbarın timsalında aydın görünür ki, kənd təsərrüfatında məhsulun yığılması ilə iş başa çatmır. Əldə olunan məhsulun qorunması, düzgün saxlanılması və tələbat nəzərə alınmaqla bazara çıxarılması da istehsal prosesinin ayrılmaz hissəsidir. Fermerlərin təşəbbüsləri, yaradılan infrastruktur və dövlət dəstəyi bu sahənin inkişafına, yerli istehsalın iqtisadi səmərəsinin artırılmasına zəmin yaradır. Beləliklə, Şərurda payızın bərəkəti yalnız bugünkü bolluqla məhdudlaşmır. Soyuducu anbarlarda qorunan hər ton məhsul qış aylarında da yerli istehsalın davamlılığını təmin edən, fermer əməyinin dəyərini qoruyan və əhalinin ərzaq təminatına töhfə verən ehtiyatdır.

Nail ƏSGƏROV

Ömrün Naxçıvan aşırımları - Xalq yazıçısı Mirzə İbrahimov və Naxçıvan mətbuatı

"Şərq qapısı" qəzeti – 105



Azərbaycan ədəbiyyatına onlarla maraqlı povest və hekayə bəxş edən, romanları və publisistik məqalələri ilə oxucu qəlbinə yol tapan Xalq yazıçısı, akademik Mirzə İbrahimovun həyat və yaradıcılığında Naxçıvan dövrü xüsusi yer tutur. Görkəmli ədibin həyat və fəaliyyətini araşdıran tədqiqatçılar, eləcə də Naxçıvan mətbuatının tarixini öyrənən alimlər öz əsərlərində onun bu bölgədəki fəaliyyətinə müəyyən qədər toxunublar. Mirzə İbrahimovun Naxçıvanda keçirdiyi illər onun yazıçı və ictimai xadim kimi formalaşmasında mühüm mərhələdən biri olmaqla yanaşı, həmin dövrün ədəbi-mədəni və ictimai mühitinin öyrənilməsi baxımından da əhəmiyyətlidir.

1911-ci ildə Cənubi Azərbaycanın Sərab şəhərində dünyaya gələn Mirzə İbrahimovun Naxçıvanla bağlılığı ötən əsrin 30-cu illərinə təsadüf edir. O, qələm dostu, Xalq yazıçısı Əli Vəliyevlə birlikdə Naxçıvana ezam olunaraq burada formalaşmaqda olan ədəbi-mədəni mühitin inkişafına, ədəbiyyatın təşəkkülünə, və mətbuatın tərəqqisinə töhfələr verib.

Əli Vəliyev öz xatirələrində yazır ki, o, Mirzə İbrahimovla birgə yalnız mətbuatın inkişafına deyil, həm də yeni yazıçı və jurnalist nəslinin yetişməsinə böyük əmək sərf ediblər. Onların birgə fəaliyyəti Naxçıvanda ədəbi-mədəni və publisistik mühitin canlanmasına, gənc qələm sahiblərinin üzə çıxmasına və yaradıcılıq imkanlarının genişlənməsinə mühüm təkan verib.

Şair-dramaturq Müzəffər Nəsirli Mirzə İbrahimovun Naxçıvandakı fəaliyyətini xatırlayaraq yazırdı: "1933-34-cü illərdə Naxçıvanda yaşayarkən Mirzə İbrahimov ədəbi gəncliyin rəhbəri idi. Klassik Azərbaycan və rus ədəbiyyatı, müasir sovet ədəbiyyatında baş verən yenilikləri onlara çatdırırdı. Ədəbi gəncliyin qayğısına qalaraq "Şərq qapısı" qəzetinin redaktoru Əli Vəliyevlə Naxçıvanda "Ədəbiyyat" qəzetinin bir neçə nömrəsinin nəşrinə nail olmuşdu. Qəzeti Mirzə İbrahimovun özü redaktə edirdi, ən qüvvətli ədəbiyyat maraqlılarını da ətrafına toplamışdı".

Görkəmli yazıçının Naxçıvan dövrü haqqında ilkin məlumatlara onun öz xətti ilə yazdığı tərcümeyi-halında rast gəlinir. Mirzə İbrahimov həmin illəri belə xatırlayır: "1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun 2 illik hazırlıq şöbəsinə daxil olub 1933-cü ildə hazırlıq şöbəsini bitirdiyim zaman Azərbaycan təşkilatı məni respublikanın zəngin və maraqlı guşələrindən biri olan Naxçıvana, Maşın-Traktor Stansiyası siyasi şöbəsinin "Sürət" adlı qəzetinə redaktor göndərdi. Doğrusu, mən bu işə o qədər də həvəslə getmədim. Çünki hələ təhsilimin kifayət olmadığına qane idim. Sinif yoldaşlarımın çoxu kimi aspiranturada oxumaq istəyirdim. Lakin sonralar mən ora getməklə çox şey qazandığıma inandım".

Mirzə İbrahimovun Naxçıvanda yaşayıb işlədiyi illər bölgənin ictimai-siyasi və mədəni həyatında mürəkkəb proseslərin getdiyi bir dövrə təsadüf edirdi. Yeni ictimai quruluşun gətirdiyi ab-hava başda ədəbiyyat olmaq üzrə bir çox sahələrə sirayət edir, muxtar respublikada cərəyan edən hadisələr isə mətbuata təsirsiz ötüşmürdü. Belə bir şəraitdə Mirzə İbrahimov və Əli Vəliyev ədəbi mühitin gənc yaradıcı qüvvələrinin üzə çıxarılması və mətbuata yeni nəfəs gətirilməsi istiqamətində fəaliyyətlərini genişləndirirdilər. Həmin dövrün şahidi və iştirakçısı olmuş şair Müzəffər Nəsirli Mirzə İbrahimovun fəallığını belə görürdü: "Mirzə İbrahimov gecə-gündüz kolxozlarda olur, məqalələr yazır, eyni zamanda respublikanın mədəni-siyasi həyatında fəal iştirak edirdi".

Gənc yazıçı və şairlərlə apardığı görüşlər, yaradıcılıq sahəsində təşəbbüslər, mətbuata göstərilən diqqət Mirzə İbrahimovun qısa müddətdə Naxçıvanda rəğbət qazanmasına səbəb olmuşdu. O, əlindən gəldiyi qədər regionda ədəbi həyatın canlanmasına, gənc qələm sahiblərinin yetişməsinə və sağlam yaradıcılıq mühiti formalaşdırmağa çalışırdı. Bu təşəbbüslər yerli ədəbi günlərə stimul verir, onların yaradıcılıq imkanlarının genişlənməsinə şərait yaradırdı.

Ümumiyyətlə, Mirzə İbrahimovun həyat və yaradıcılığının Naxçıvan dövrü ədibin özü üçün də olduqca uğurlu və yaddaqalan olmuşdu. O, burada yeni dostlar qazanmaqla yanaşı, həm də Naxçıvan mühitini dərindən öyrənmiş, buranın insanlarının həyat və fəaliyyəti ilə yaxından tanış olmuşdu. Əsərləri arasında sevilən "Həyat" pyesinin mövzusunu da Naxçıvan həyatından götürən görkəmli yazıçı bu əsərdə gördüyü, müşahidə etdiyi real hadisələri qələmə almışdı. Bununla yanaşı, Naxçıvanda işlədiyi iki il ərzində Mirzə İbrahimovun daha iki əsəri – "Nəhənglər ölkəsi" və "Həyat naminə" əsərləri çapdan çıxıb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid "Şərq qapısı" qəzeti və "Naxçıvanda ədəbi mühit" kitabında çox qiymətli bir faktı oxucularla bölüşür. Müəllif həmin əsərdə yazır ki, "Şərq qapısı" qəzetinin 1934-cü il tarixli sayında Mirzə İbrahimovun yeni çapdan çıxmış əsəri barədə məlumat verilir: "Yazıçılarımızdan yoldaş Mirzə İbrahimov "Alagöz" romanının birinci hissəsini yazıb qurtarmışdır". Təəssüf ki, gənc yazıçının yaradıcılıq axtarışlarının məhsulu olan bu romanı müəyyən səbəblərdən tamamlanmayıb.

Görkəmli ədəbiyyatşünas-alim Lətif Hüseynzadə də Mirzə İbrahimovun Naxçıvandakı fəaliyyətinə, ədəbiyyat və mətbuat sahəsindəki xidmətlərinə xüsusi diqqət yetirib. O yazırdı: "Mirzə İbrahimov Naxçıvanda müxbirlərin, şair, aşıq və nağıl deyənlərin konfranslarını keçirir, ədəbi müsamirələr təşkil edirdi. Texniki səbəblərə görə ədəbi-pedaqoji məcmuə nəşrinə nail ola bilmir. Mirzə İbrahimov bunun əvəzinə Naxçıvanda Azərbaycan sovet mətbuatı tarixində yeni bir səhifə təşkil edən "Ədəbiyyat" qəzetinin nəşrinə nail olur. Onun bu nəcib təşəbbüsü Naxçıvandakı sovet yazıçılarının əsərlərini çap etdirməsi üçün geniş imkan yaratdı. Qəzetin redaktoru da ədibin özü idi. Onun bu qəzetdə bir sıra oçerk və hekayələri dərc edilmişdir. Bu qəzetdə "Dünya qopur" romanı haqqında Mirzənin çox dəyərli bir məqaləsi də dərc edilmişdi. Mirzə İbrahimov Naxçıvanda həm öyrənmiş, həm də yaratmışdı".

Naxçıvanda mətbuat ənənələrinin formalaşmasında və inkişafında mühüm rol oynayan "Ədəbiyyat" və "Sürət" qəzetlərinin heç bir arxiv nömrələrinin günümüzədək gəlib çatmaması təəssüf doğurur. Bu nəşrlər haqqında məlumatlarımız, əsasən, Lətif Hüseynzadənin, Müzəffər Nəsirlinin və digər ədəbiyyat nümayəndələrinin xatirələrinə, eləcə də dövrün mətbuatında qorunub saxlanılan ayrı-ayrı məlumatlara əsaslanır.

Mirzə İbrahimovun Naxçıvan dövrü onun həyat və yaradıcılığında dərin iz buraxıb. Ədib burada olduğu qısa müddətdə bölgənin ədəbi mühitinin canlanmasına, yerli qələm sahiblərinin yaradıcılıq imkanlarının genişlənməsinə və yeni ədəbi qüvvələrin üzə çıxmasına mühüm töhfələr verib. Onun təşəbbüsləri ilə gənc yazıçı və şairlər üçün yeni imkanlar yaranıb, mətbuat ədəbi fikrin yayılması üçün daha geniş meydan qazanıb.

Uzun və zəngin ömür yolu keçən Mirzə İbrahimov sonrakı illərdə də Naxçıvana səfərlər edib, bir zamanlar birlikdə çalışdığı dostları ilə görüşüb, gənclik xatirələrini yada salıb.

Böyük ədibin Naxçıvanla bağlılığı həm onun yaradıcılıq irsinin, həm də bölgənin ədəbi-mədəni tarixinin öyrənilməsi baxımından bu gün də aktuallığını qoruyub saxlayır.

Əsl ömür insanların yaddaşında qalan izlərlə ölçülür...

(portret oçerk)

Adını hər dəfə xatırlayanda gözlərim önündə həlim baxışları, ləngərli yerişi və ən əsası, həmişə maraq doğuran söhbətləri ilə yaddaşımda yaşayan bir insan obrazı canlanır. Dostları, qələm yoldaşları arasında böyük hörmət və ehtiram qazanan bu peşəkar qələm sahibi ilə mən hələ tələbəlik illərindən tanışam. İllər keçsə də, onun səmimiyyəti, təmkinli davranışı və sözə olan sevgisi yaddaşımdan silinməyib.

Artıq bir neçə ildir ki, təqaüddə olmasına baxmayaraq, tez-tez onunla işlədiyim, xatirələrlə dolu illəri yada salır, bəzən telefonla əlaqə saxlayırıq, keçmişdən, gələcəkdən danışırıq. Bəzən də görüşüb saatlarla mətbuat, ədəbiyyat haqqında söhbət edirik. Bir sözlə, onunla nə vaxt üz-üzə gəlsək, danışacaq sözümüz, müzakirə edəcəyimiz mövzumuz mütləq olur. O, "Şərq qapısı" qəzetində uzun illər çalışmış, qələmi və özünəməxsus yaradıcılıq üslubu ilə neçə-neçə gənc jurnalistə örnək olmuş qələm sahibi, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədoğludur.

Ömrünün bir hissəsini qəzetə, qəzetçiliyə, digər bir hissəsini isə müəllimlik kimi müqəddəs peşəyə həsr edən Muxtar müəllim mətbuatımızın ağsaqqal qələm sahiblərindəndir. O, 30 ilə yaxın jurnalist kimi səmərəli fəaliyyət göstərib. Mətbuata başladığım ilk illərdə əlimdən tutan, mənə dəstək olan jurnalistlər arasında onun adını, imzasını görmək, hər şeydən əvvəl, mənim üçün böyük stimul idi.

İllər keçdikcə doğmalaşdıq, dostlaşdıq. Hətta yazılarının ilk oxucularından biri oldum, kitabları haqqında resenziyalar yazdım. Sözə böyük həssaslıqla yanaşan Muxtar müəllimin yaradıcılığı haqqında yazmaq mənim üçün həmişə böyük məsuliyyət tələb edib. Təvazökarlıqdan uzaq olsa da, bu cəsarəti və məsuliyyəti zaman-zaman onun ustad söhbətlərindən, qiymətli tövsiyələrindən aldım. Muxtar müəllim gənclərə məsləhət verəndə qələmdən, sözdən, yazıdan qorxmamağı, diqqətli və qərəzsiz olmağı, mütaliədən, kitabdan, bir sözlə, oxumaqdan uzaq düşməməyi tövsiyə edirdi. Qəzetdə çalışdığı illərdə otağının qarşısından keçərkən onun daim mütaliə etdiyinin, gündəlik qəzetləri vərəqlədiyinin şahidi olurdum. O, yalnız sözləri ilə deyil, şəxsi nümunəsi ilə də gənclərə yol göstərməyi bacarırdı.

Bir neçə il əvvəl işıq üzü görən növbəti kitabında Muxtar müəllim üzünü 60 illik ömür yoluna tutaraq soruşdu: "İllər, sizdə nəyim qaldı?" Söz adamı olan Muxtar müəllimin kitabına nə üçün belə bir ad verdiyini anlaya bilməmişdim. Zaman keçdikcə bu sualın mahiyyətini anlamağa başladım. Sən demə, insan ötən günlərə boylandıqca ən çox ömründən süzülüb gedən illərin xiffətini çəkirmiş. Bəzən darıxır, bəzən kövrəlir, hətta yaşından asılı olmayaraq, uşaq kimi inciyib-küsür. İllər bir-birini əvəz etdikcə insanı sanki bir ev kimi kərpic-kərpic hörür, pillə-pillə ucaldır. Hər il ömrümüzə bir daş qoyur, amma həmin daşla birlikdə bizdən nələrisə də aparır. İndi bu sətirləri qələmə alarkən Muxtar müəllimi daha yaxşı başa düşürəm. Çünki o ötən illərdə, hər şeydən əvvəl, qayğısız uşaqlığını, ata-analı çağlarını, gəncliyini, tələbəlik illərini, bir zamanlar başına sığal çəkdiyi şagirdləri ilə bağlı xoş xatirələrini axtarırdı...

İllərin Muxtar müəllimə nə qazandırdığını, ondan nə apardığını söyləmək, əlbəttə, asan deyil. Amma mətbuatımızın bu cəfakeşini yaxından tanıyan biri kimi əminliklə deyə bilərəm ki, mətbuata həsr etdiyi ömür yolunda Muxtar Məmmədoğlu çox şey qazanıb. Ən başlıcası isə özünəməxsus imzasını... Qəzetə, qəzetçiliyə həsr etdiyi otuz ilə yaxın zaman kəsiyində o, yalnız bir adla, bir imza ilə tanındı: Muxtar Məmmədoğlu. Operativliyi, qərəzsizliyi, gənclərə də bu keyfiyyətləri aşılamağa çalışan müəllim və jurnalist kimi.

Həyat yolunun ən maraqlı məqamlarından biri də budur ki, bir əlində təbaşir tutub müəllimlik etdiyi illərdən bəri mətbuatla əlaqəsini kəsməyib. Hələ məktəbdə çalışdığı vaxtlardan müxtəlif mətbuat orqanlarında dərc olunan maraqlı və yaddaqalan yazıları ilə oxucuların diqqətini çəkib, Muxtar müəllimin jurnalistikaya gəlişi də təsadüfi deyildi. Müəllimlik illərində qazandığı müşahidə qabiliyyəti, insanları yaxından tanımaq bacarığı, sözə və hadisələrə həssas münasibəti onun publisistikasında da özünü göstərdi. O, həyatın adi görünən məqamlarından belə maraqlı nəticələr çıxarmağı, insan taleləri, sözün məsuliyyətinə və zamanın yaddaşına işıq salmağı bacarırdı. Bəlkə də elə buna görədir ki, Muxtar Məmmədoğlunun adı "Şərq qapısı"nın tarixi ilə yanaşı çəkiləndə yaddaşlarda yalnız bir jurnalist obrazı canlanmır. Qarşımızda sözə sədaqətlə xidmət etmiş, müəllimlikdən jurnalistikaya, jurnalistikadan isə mənəvi yaddaşa uzanan ömür yolu keçmiş bir ziyalı obrazı dayanır.

Dostu, Əməkdar jurnalist, yazıçı-publisist Hüseyn Əsgərov Muxtar müəllim haqqında danışarkən və yazarkən onu Naxçıvanda redaktə məktəbinin sonuncu nümayəndəsi adlandırır. Bu fikirdən çıxış edərək bir məqamı da qeyd etmək yerinə düşər. Muxtar Məmmədoğlu "Şərq qapısı" qəzetində çalışdığı illərdə redaktə bacarığı və peşəkarlığı nəzərə alınaraq "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşriyyat şöbəsinin müdiri vəzifəsinə təyin edilib. Burada çalışdığı müddətdə 50-yə yaxın kitaba redaktorluq edib.

Bu gün onunla söhbət edəndə yenə keçmişdən danışırıq. Köhnə qəzetlərdən, həmkarlardan, müəllimlik illərindən, nəşriyyatdakı fəaliyyətindən, ədəbiyyatdan, jurnalistikadan söz açırıq. Hər söhbətin sonunda isə insanın içində qəribə bir duyğu yaranır: sanki danışdığımız yalnız keçmiş deyil, zamanın özüdür. O zamanın ki, içində hər şeydən çox insan ömrü var. Doğma və əziz xatirələr yaşayır, unudulmayan insanlar, yaşanmış günlər var. Həyat adlı bir nağıl var. Bu, insan ömrünün, insan həyatının nağılıdır. Bu ömrün sonunu biz yazmırıq. Onu zaman yazır, xatirələr yaşadır. Ömürdən ötüb keçən illər həyatı sətir-sətir, səhifə-səhifə qələmə alır. Və elə bir zaman gəlir ki, biz üzümüzü həmin illərə tutub ərkyana soruşuruq: "İllər, sizdə nəyim qaldı?"




Mən düşünürəm ki, bu sualın cavabı elə Muxtar müəllimin öz ömründədir. Bu illər onun 67 illik ömründən nələrsə aparıb. Amma bir həqiqət də var: Həmin illərdə yazdığı sözləri, yetişdirdiyi şagirdləri, qazandığı dostları, qoyduğu imzanı, ən əsası isə insanların yaddaşında yaratdığı xoş xatirələri zaman apara bilməyib. Çünki əsl ömür təqvimdə qalan illərlə deyil, insanların yaddaşında qalan izlərlə ölçülür. Muxtar müəllimin ömür yoluna nəzər salanda həmin izlərin çoxluğunu görürük. Onlar qəzet səhifələrində, qələmə aldığı yazılarda, yetişdirdiyi şagirdlərinin uğurlarında, həmkarlarının xatirələrində, dostlarının söhbətlərində, onu tanıyan insanların yaddaşında yaşayır.

Bu gün ömrünü mətbuata həsr etmiş, sözə və sənətə sədaqəti ilə seçilmiş, Naxçıvan mətbuatının ağsaqqal qələm sahiblərindən biri olan, Əməkdar jurnalist, "Tərəqqi" medallı söz adamı Muxtar Məmmədoğlunu böyük hörmət və ehtiramla salamlayırıq. Xatırladırıq ki, uzun illər mətbuat sahəsində səmərəli fəaliyyət göstərən söz adamının əməyi qeyd etdiyim fəxri adla və medalla yekunlaşmayıb. O, dövlətimiz tərəfindən mənzillə təmin olunub, ötən il isə "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalına layiq görülüb.

Zaman keçsə də, illər bir-birini əvəz etsə də, milli mətbuatımız yaşadıqca, ömrünü mətbuata həsr edən jurnalistlərimizin adı və imzası da yaşayacaq. Çünki bəzi insanlar ömürdən ötüb keçən illərlə deyil, illərin içində qoyduqları izlərlə xatırlanırlar. Muxtar müəllim də məhz belə bir ömür yaşayıb və yaşadığı ömürlə qürur duyur...

Məcid RƏŞADƏTOĞLU



NDU ilə Şanxay Mühəndislik Elmləri Universiteti arasında ikili diplom və digər əməkdaşlıq imkanları müzakirə olunub

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və universitetin nümayəndə heyəti Çin Xalq Respublikasının nüfuzlu ali təhsil müəssisələrindən biri olan Şanxay Mühəndislik Elmləri Universitetinin (Shanghai University of Engineering Science) rəhbərliyi ilə görüş keçirib.

Görüşdə iki universitet arasında təhsil, elmi-tədqiqat, innovasiya və beynəlxalq akademik əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub. Tərəflər Naxçıvan Dövlət Universitetində HSK – Çin dili üzrə beynəlxalq səviyyə imtahanı mərkəzinin yaradılması, eləcə də Çin dili üzrə hazırlıq imkanlarının genişləndirilməsi məsələlərinə toxunublar. Təşəbbüsün həyata keçirilməsi Naxçıvanda bu sahədə ilk addım olmaqla, NDU-da HSK imtahanlarının təşkili və Çin dili üzrə hazırlıq prosesinin həyata keçirilməsinə imkan yaradacaq.

Əməkdaşlığın digər istiqamətləri sırasında süni intellekt, dizayn və bərpa olunan enerji sahələrində magistratura səviyyəsində ikili diplom proqramlarının yaradılması məsələləri yer alıb. Bu sahələrdə birgə təhsil proqramlarının hazırlanması, elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə və müəllim mübadiləsinin təşkili, həmçinin NDU tələbələrinin Şanxayda keçiriləcək yay məktəblərində iştirakı ilə bağlı imkanlar nəzərdən keçirilib.

Şanxay Mühəndislik Elmləri Universiteti, əsasən, mühəndislik, tətbiqi texnologiyalar və dizayn sahələri üzrə ixtisaslaşıb. Universitetin güclü istiqamətlərinə avtomobil və maşınqayırma mühəndisliyi, elektrik-elektronika, kompüter elmləri, aviasiya və dəmir yolu nəqliyyatı, enerji texnologiyaları və yaradıcı dizayn daxildir. Tədrisdə praktiki hazırlığa, sənaye ilə əməkdaşlığa və innovasiyalara xüsusi önəm verilir.

Səfər iki ali təhsil müəssisəsi arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, yeni akademik tərəfdaşlıqların qurulması və birgə təhsil proqramlarının yaradılması baxımından əhəmiyyətli addım kimi qiymətləndirilir. Tərəflər müzakirə olunan istiqamətlər üzrə əməkdaşlıq imkanlarının gələcəkdə konkret təşəbbüslər və birgə layihələr vasitəsilə inkişaf etdirilməsində maraqlı olduqlarını bildiriblər.

Çinli müəllim Xiaofen Zhang: Naxçıvanın dinc mühiti və insanlarının səmimiyyəti məni valeh etdi

Son illərdə Naxçıvan Dövlət Universiteti ilə Çin Xalq Respublikasının ali təhsil və elm müəssisələri arasında əməkdaşlıq əlaqələri genişlənir. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2026-2027-ci tədris ilində NDU-da ilk dəfə Tərcümə (Çin-Azərbaycan dilləri) ixtisasının yaradılması və həmin ixtisas üzrə tədrisə başlanılmasıdır. 2026-cı ilin iyul ayında NDU ilə Çinin Urumçi Peşə Universiteti arasında elm, təhsil və innovasiya sahələrində əməkdaşlığı nəzərdə tutan anlaşma memorandumunun imzalanması əlaqələrin inkişafına yeni imkanlar açıb.

Bu əməkdaşlıq çərçivəsində Naxçıvana gələn mütəxəssislərdən biri də çinli müəllim Xiaofen Zhangdır. 40 yaşlı müəllim Çinin Qansu əyalətinin Tianshui Normal Universitetinin əməkdaşıdır: "Universitet tərəfindən mənə Naxçıvanda Çin dilini tədris etmək imkanı təklif edildikdə bunu dünyanı daha yaxından kəşf etmək və zəngin təcrübə qazanmaq üçün gözəl fürsət kimi dəyərləndirdim. Mən də dünyanı gəzmək, yeni yerlər görmək və fərqli mədəniyyətlərlə tanış olmaq istəyirdim. Çində belə bir qədim deyim var: "Min kitab oxumaqdansa, min mil yol getmək yaxşıdır". Yəni insan yalnız oxumaqla kifayətlənməməli, həm də dünyanı gəzib görməlidir", – deyə Xiaofen Zhang bildirib.



Xüsusilə təhlükəsizlik, şəhərin təmizliyi və insanların münasibəti onda xoş təəssürat yaradıb: "Buraya gəlməzdən əvvəl bəzi dostlarım Naxçıvanın təhlükəli ola biləcəyini demişdilər. Ancaq gəldikdən sonra buranın kifayət qədər təhlükəsiz, təmiz, sakit və dinc bir yer olduğunu gördüm. Naxçıvanın məhz bu dinc mühiti və insanlarının çox səmimi, istiqanlı olması mənim ən çox sevdiyim cəhətlərdən biri oldu", – deyə o təəssüratlarını bölüşür.

Xiaofen Zhangın diqqətini çəkən məqamlardan biri də Çin ilə Naxçıvan arasında məişət və təhsil infrastrukturu mühitinin fərqliliyidir: "Çindəki universitet kampusları geniş ərazini əhatə etdiyi üçün orada tələbələr üçün müxtəlif qidalanma mərkəzləri, idman kompleksləri və yataqxanalar daha çoxdur. Naxçıvanda isə tələbələrin böyük hissəsi öz evlərindən universitetə gəlir və ya kirayə evlərdə yaşayırlar. Çində isə vəziyyət fərqlidir, orada tələbələrin günü daha çox kampus daxilində keçdiyi halda, burada gənclər şəhər mühiti ilə daha sıx təmasdadırlar".

Tədris prosesinə və tələbə psixologiyasına gəldikdə Xiaofen Zhang iki ölkənin gəncləri arasında maraqlı müqayisələr aparır: "Çindəki tələbələrlə buradakı tələbələr arasında da müəyyən fərqlər var. Çində təhsil prosesi daha stresli olduğundan tələbələr də daha çox gərginlik yaşayırlar. Naxçıvandakı tələbələr isə daha fəal, dərslərdə daha danışqan və səmimidirlər. Buradakı tələbələrin Çin tələbələri qədər böyük təzyiq altında olmadığını düşünürəm. Naxçıvandakı tələbələrin yardımsevər, həyat dolu və səmimi olmaları mənim çox xoşuma gəlir".

Xiaofen Zhang universitetdə yaradılan şəraitdən danışarkən mövcud imkanlardan səmərəli istifadə olunduğunu vurğulayır: "Tədris prosesində Naxçıvan Dövlət Universitetinin təqdim etdiyi imkanlardan yararlanırıq. Yeni yaradılmış Çin dili bölməsində resurslarımız mərhələli şəkildə zənginləşsə də, mövcud imkanları ən effektiv şəkildə dəyərləndiririk. Hazırda dərslərimizi uğurla davam etdiririk", – deyə o bildirir.

Xiaofen Zhangın Naxçıvana gəlişi və burada Çin dilinin tədrisində iştirakı yalnız akademik əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyət daşımır. Bu eyni zamanda Azərbaycan və Çin xalqlarının mədəniyyətini, düşüncə tərzini və həyat təcrübəsini bir-birinə daha yaxından tanıtmaq üçün yeni imkanlar yaradır. Naxçıvan Dövlət Universitetində Çin dili üzrə yeni ixtisasın fəaliyyətə başlaması isə tələbələrin fərqli mədəniyyətləri öyrənməsinə, dil biliklərini inkişaf etdirməsinə və beynəlxalq əməkdaşlıq imkanlarından yararlanmasına xidmət edir.

Bir vaxtlar yalnız internet vasitəsilə tanımağa çalışdığı Naxçıvan bu gün çinli müəllim üçün canlı təəssüratların, səmimi münasibətlərin və yeni təcrübələrin məkanına çevrilib. Onun fikirləri isə göstərir ki, xalqlar arasında qarşılıqlı anlaşmanın yolu təkcə rəsmi əməkdaşlıqdan deyil, həm də gündəlik ünsiyyətdən, səmimi münasibətlərdən və bir-birinin mədəniyyətini yaxından tanımaqdan keçir.

Elnurə CƏFƏROVA


Naxçıvan Dövlət Uşaq Teatrı: 20 ilin səhnə salnaməsi


Uşaqlıq illərinin ən unudulmaz xatirələri bəzən bir nağıldan, bəzən səhnədə canlanan qəhrəmanın macəralarından, bəzən də pərdənin arxasından boylanan möcüzələrdən başlayır. Teatr uşaqlar üçün, sadəcə, tamaşa izlədikləri məkan deyil, həm də xəyallarının qanadlandığı, yaxşı ilə pisi ayırmağı, dostluğun, cəsarətin və mərhəmətin dəyərini öyrəndikləri sehrli bir dünyadır. Burada hər obrazın öz hekayəsi, hər tamaşanın bir mesajı var. Səhnədə yaşanan hadisələr balaca tamaşaçıları düşündürür, onların duyğularına toxunur, yaddaşlarında silinməz izlər buraxır.

Artıq 20 ildir ki, Naxçıvan Dövlət Uşaq Teatrı bu sehrli dünyanın qapılarını uşaqların üzünə açır. Ötən illər ərzində səhnədə nağıllar canlanıb, müxtəlif qəhrəmanların taleyi tamaşaçılarla bölüşülüb, yeni əsərlər repertuara daxil edilib, yaradıcı axtarışlar davam etdirilib. Teatrın ötən illərdə keçdiyi yaradıcılıq yolu, bu gün gördüyü işlər və qarşıya qoyduğu məqsədlər barədə Azərbaycan Respublikasının Əməkdar artisti, teatrın quruluşçu rejissoru, Naxçıvan Dövlət Universitetinin müəllimi, Altai teatrının yaradıcısı və rəhbəri Nurbəniz Niftəliyeva ilə söhbət etdik.

Müsahibim teatrın yaranma tarixindən danışarkən bildirib ki, kollektiv 2006-cı il iyunun 1-də Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Vüsal Rzayevin müəllifi və quruluşçu rejissoru olduğu "Cəsur dovşan" tamaşası ilə fəaliyyətə başlayıb. İlk tamaşanın səhnəyə çıxması yeni yaradıcılıq yolunun başlanğıcı olmaqla yanaşı, Naxçıvanın mədəni həyatında uşaq teatrının gələcək inkişafı baxımından da mühüm addım olub. Həmin il oktyabrın 4-də kollektiv dövlət statusu alaraq Naxçıvan Dövlət Uşaq Teatrı adını qazanıb.

Nurbəniz Niftəliyeva qeyd edib ki, yeni kollektivin yaranması bir neçə sənətkarın təşəbbüsü, zəhməti və uşaq teatrının gələcəyinə olan inamı sayəsində mümkün olub: "Naxçıvan teatrının təcrübəli sənətkarları ilə məktəblilərin bir araya gəlməsi kollektivin formalaşmasında mühüm rol oynayıb. Yarandığı ilk gündən teatrın əsas məqsədi uşaqların maraq və düşüncə dünyasına uyğun tamaşalar hazırlamaq, onların dünyagörüşünü zənginləşdirmək, səhnə sənətinə marağını artırmaq olub. Kollektivin fəaliyyətini genişləndirməsi üçün yaradılan şərait də teatrın inkişafına öz töhfəsini verib. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində müvafiq yaradıcılıq imkanları ilə təmin olunan teatr 270 nəfərlik tamaşaçı zalı, iş və qrim otaqları ilə fəaliyyətini davam etdirir".





Əməkdar artistin sözlərinə görə, ötən illər ərzində teatrın yaradıcılıq fəaliyyətində uşaqların təxəyyülünün, estetik zövqünün və musiqi duyumunun inkişafına xüsusi önəm verilib. Səhnələşdirilən əsərlərdə balaca tamaşaçıların yaş xüsusiyyətləri və maraqları nəzərə alınıb, müxtəlif obrazlar vasitəsilə onlara mənəvi dəyərlər aşılanıb. Çünki uşaq teatrının məqsədi yalnız maraqlı tamaşalar təqdim etmək deyil, həm də uşaqların düşüncəsinə təsir göstərmək, onların yaddaşında xoş təəssürat və unudulmaz xatirələr yaratmaqdır.

Müsahibim məktəblilərin teatrın yaradıcılıq həyatındakı roluna da diqqət çəkib: "Məktəbli aktyorların iştirakı teatrın fəaliyyətində həmişə xüsusi yer tutub. Uşaqların peşəkar aktyorlarla eyni səhnəni bölüşməsi onlara yalnız rol ifa etmək təcrübəsi qazandırmayıb, həm də məsuliyyət, kollektivlə işləmək və özünü ifadə etmək bacarıqlarını inkişaf etdirib. Müxtəlif illərdə tamaşalarda iştirak edən məktəblilər teatrın yaradıcılıq həyatının ayrılmaz hissəsinə çevriliblər".

Nurbəniz Niftəliyeva repertuarın zənginləşdirilməsi istiqamətində görülən işlərdən danışıb. Onun sözlərinə görə, hazırda yeni tamaşaların hazırlanması və səhnə əsərlərinin repertuara daxil edilməsi istiqamətində fəaliyyət davam etdirilir: "Rza Zeynalovun quruluşunda Vüsal Rzayevin "Daşdəmirin nağılı", Əməkdar artist Nurbəniz Niftəliyevanın quruluşunda isə "Dostluğun rəmzi Novruz", "Məzlum dovşan", "İdeal kimdir?", "Danışan kukla" və "Momo" tamaşaları 2026-cı ilin repertuar planına daxil edilib. 20 illik fəaliyyət ərzində teatrın səhnəsində, ümumilikdə, 58 tamaşa təqdim olunub, çoxsaylı mədəni tədbirlər keçirilib. Bu rəqəmlərin arxasında müxtəlif illərdə kollektivdə çalışan müəlliflərin, rejissorların, aktyorların, rəssamların, texniki heyət üzvlərinin və məktəbli ifaçıların zəhməti dayanır. Hər birinin əməyi teatrın bu günə qədər gəlib çatmasında öz izini qoyub".

Naxçıvan Dövlət Uşaq Teatrının 20 illik fəaliyyət yolu ilk tamaşadan başlayan yaradıcılıq axtarışlarının, sənətə bağlılığın və uşaqlara ünvanlanan mənəvi missiyanın salnaməsidir. İllər, nəsillər, səhnədə canlanan obrazlar dəyişsə də, uşaqların teatr dünyasına marağı, qəhrəmanların sevincinə şərik olmaq, onların yaşantılarına kövrəlmək duyğusu dəyişməz qalır. Teatrın iki onillik ərzində keçdiyi yol da məhz bu bağlılığın, sənətə sədaqətin və uşaqların mənəvi dünyasına töhfə vermək istəyinin ifadəsidir. Arzu edirik ki, bu sənət ocağında pərdələr hər zaman açılsın, yeni obrazlar yaransın, səhnədə nağıllar yaşasın, uşaqların sevinci və alqışları əskik olmasın.

Zəhra VƏLİYEVA

Payız duyğuları



Payızın hökmüylə əsdi bir külək,
Bir yaşıl səltənət çovğuna düşdü.
Ağaclar bir yaş da qocaldı demək,
Bir yarpaq nəsli də qırğına düşdü.

Aldı verdiyini geriyə torpaq,
Qazancı nə oldu bağın-bağçanın?
Bir yarpaq boy atdı körpə bir uşaq,
Ömründən bir yarpaq düşdü qocanın.

Palıdlar tab etdi sükuta, yasa,
Gilas yarpaqları qızardı, düşdü.
Hansı bəxtəvərin növcavanınsa,
Üzünə bir yarpaq qızartı düşdü.

Çox yarpaq tökümü görüb yerimiz,
Soraq tutmaq olmur cığırdan, izdən.
Torpaq altındakı əzizlərimiz
Yenə də bir yarpaq gen düşdü bizdən.

Bir yarpaq da düşdü Bəzz qalasına,
Divarlar bir yarpaq çökdü aşağı.
İgid Babəklərin, Koroğluların
Bir yarpaq uzaqdan gəldi sorağı.

Yarpaqlar, belədir zamanın hökmü,
Tökülün, əbədi ömrə tamarzı.
Tarixin yüz illik yarpaq tökümü,
Olacaq bir yarpaq yaddaş kağızı.

Payızın ağzından əsdikcə külək,
Bir yaşıl səltənət çovğuna düşdü.
Ağaclar bir yaş da qocaldı demək,
Bir yarpaq nəsli də qırğına düşdü.

Musa YAQUB
Xalq şairi



Fotolar: Zülfüqar Qurbanlı

Elbrus İsayev Asiya Elmlər Akademiyasının (AEA) üzvü seçilib



Çinin Sanya şəhərində keçirilən Asiya Elmlər Akademiyasının (AEA) Baş Assambleyası və "Bir kəmər, bir yol: ortaq elmi və texnoloji gələcəyin formalaşdırılması" Birinci Asiya Yüksək Səviyyəli Elmi Forumunda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev də iştirak edib.

Forumun ilk günündə dünyanın müxtəlif dövlətlərini təmsil edən görkəmli elm xadimləri forumun əhəmiyyəti və beynəlxalq elmi əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüblər.

Tədbirin ikinci günündə akademiyaya qəbul edilmiş yeni üzvlərin təqdimatı və diplomların verilməsi mərasimi keçirilib. Dünyada tanınmış elm adamlarının üzv qəbul edildiyi namizədlər arasında Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev də yer alıb.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi tabeliyində olan elmi-tədqiqat müəssisələrində aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə elan edir

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu Qədim və orta əsrlər tarixi şöbəsi
Aparıcı elmi işçi – 1 ştat vahidi
Yeni və ən yeni tarix şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi
Antik və orta əsrlər arxeologiyası şöbəsi
Şöbə müdiri – 1 ştat vahidi
Elmi işçi – 1 ştat vahidi
Qafqaz tarixi şöbəsi
Elmi işçi – 1 ştat vahidi
İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsi
Elmi işçi – 1 ştat vahidi
Musiqi və teatr şöbəsi
Aparıcı elmi işçi – 1 ştat vahidi
Onomastika şöbəsi
Elmi işçi – 1 ştat vahidi
Folklorşünaslıq şöbəsi
Aparıcı elmi işçi – 1 ştat vahidi
Ədəbiyyatşünaslıq şöbəsi
Aparıcı elmi işçi – 1 ştat vahidi
Əlyazmalar Fondu
Direktor – 1 ştat vahidi

Müsabiqədə yerlərə uyğun olaraq AMEA-nın həqiqi və müxbir üzvləri, elmlər doktorları, fəlsəfə doktorları, elmi işçilər, doktorant və dissertantlar iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

Ünvan: Az 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi İnsan resursları və sənədlərlə iş şöbəsi
Telefon: 550-21-52; 544-09-64

İtmişdir

Babək rayonu, Sirab kəndində yaşamış İbrahimov Mehdi İsmayıl oğlunun adına verilmiş JN-355 nömrəli, 10300038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşamış Rüstəmov Yavər Abbas oğluna məxsus 1432[A] nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kəndində yaşamış İmanov Rəhim Qaybalı oğluna məxsus JN-108[E] nömrəli, 10300018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Əliyev Xəlil Xaliq oğlunun adına verilmiş JN-838[A] nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Cəfərova İmarət Əli qızının adına verilmiş JN-119[B] nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, "PROTECT AZ" MMC-yə məxsus olan möhür itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini İsmayılov Əli Həsənalı oğluna məxsus JN-1880[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhəri, Zərifə Əliyeva küçəsi, 22 ünvanında Şıxıyeva Çiçək Məhərrəm qızının adına verilmiş JN-85[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kolanı kəndində Yusifov Ağca Behbud oğlunun adına verilmiş JN-236[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Güney Qışlaq kəndində Cəfərov Cəfər Pirqulu oğlunun adına verilmiş JN-175[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Qızıl Qışlaq kəndində Nuriyeva Quşdar Bəhman qızının adına verilmiş JN-170[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-38 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Vərməziyar kənd sakini Quliyev Asif Abdulla oğluna məxsus 102013000743-10301 reyestr nömrəli fərdi yaşayış evinin texniki pasportu və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Abdullayeva Şələlə Kamil qızına məxsus JN-1538 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Səməd Vurğun küçəsi 39 ünvanında yerləşən Həsənova Zərifə Əli qızı və Bədəlov Əli Yadulla oğlunun paylı mülkiyyətində olan 834 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
RƏMZİ TAHİRLİ

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 450. Sifariş № 242

Nömrəyə məsul: **Əli Cabbarov, Zəhra Vəliyeva**
Dizayner: **Pərvin Sadiqov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.